20_Pro Lat:Azeri Bible Latin 24.06.2009 11:29 Page 745

# SÜLEYMANIN MƏSƏLLƏRİ

## GİRİŞ

*«Süleymanın Məsəlləri»* Kitabı hikmətli sözlər və məsəllər şəklində olan əxlaqi və mənəvi təlim toplusudur. Bu kitab Allahdan gələn müdrikliyi gündəlik həyatda tətbiq etməyi tövsiyə edir:

«Rəbb qorxusu biliyin başlanğıcıdır» (1:7),
«Bütün qəlbinlə Rəbbə güvən,
Öz idrakına etibar etmə» (3:5).

Buradakı əsas fikir *«Qanunun Təkrarı»* Kitabı ilə həmahəng səslənir: Allaha güvənən, Onun göstərdiyi yolla gedən insan hər işində xeyir-dua alar. Məsəllər ailə və dostluq münasibətlərindən, əmək və ictimai həyatdan bəhs edir. Əsas mövzular müdriklik və səfehlik, salehlik və pislik, hikmətli sözün qüvvəti, sərvət və yoxsulluq, ümid və ehtiyat, sevinc və kədər, ağır əmək və bikarçılıqdır.

Biliyin, hikmətin təməli «Allah qorxusudur», yəni Allaha hörmət və ehtiramla yanaşmaqdır.

***Kitabın məzmunu:***

1:1-9:18 Hikmətin faydası
10:1-22:16 Süleymanın məsəlləri
22:17-24:22 Otuz hikmətli söz
24:23-34 Hikmətli sözlərin davamı
25:1-29:27 Süleymanın məsəllərinin davamı
30:1-33 Aqurun məsəlləri
31:1-9 Lemuel padşahın anasının sözləri
31:10-31 Xeyirxah arvad

1 1 İsrail padşahı Davud oğlu Süleymanın məsəlləri:

***Hikmət mənbəyi***

2 Hikmət və tərbiyəyə malik olmaq,
Müdrik sözləri dərk etmək üçün,
3 Salehlik, ədalət, insaf barədə
İdrak tərbiyəsi almaq üçün,
4 Cahillərə uzaqgörənlik,
Gənc oğlana bilik və dərrakə
vermək üçün;
5 Qoy hikmətli qulaq asıb
müdrikliyini artırsın,
Dərrakəli adam sağlam məsləhət
alsın.
6 Bu yolla insanlar məsəl və
kinayələri,
Hikmətlilərin sözlərini və
müəmmalarını anlasınlar.
7 Rəbb qorxusu biliyin başlanğıcıdır,
Amma səfehlər hikmət və
tərbiyəyə xor baxar.

---

**1:1** *1Pad. 4:32* **1:7** *Əyy. 28:28; Zəb. 111:10; Sül. 9:10*

20_Pro Lat:Azeri Bible Latin 24.06.2009 11:29 Page 746



### *Günahkarlardan uzaq durmaq*

8Oğlum, ata tərbiyəsinə qulaq as,
Ananın öyrətdiklərini kənara
atma.
9Onlar başını gözəl çələng kimi,
Boynunu boyunbağı kimi bəzər.
10Oğlum, qoyma səni günahkarlar
azdırsın.
11Desələr ki: «Gəl bizimlə pusqu
qurub qan tökək,
Nahaq yerə günahsızları güdək,
12Gəl onları ölülər diyarı kimi
diri-diri udaq,
Tamam qəbirə düşənlərə
bənzəsinlər.
13Onda çoxlu qiymətli sərvət
taparıq,
Evlərimizi talan malı ilə
doldurarıq.
14Bizə qoşul,
Qoy kisəmiz bir olsun»,
15Oğlum, onlara qoşulma,
Yollarına ayaq basma.
16Çünki onların ayaqları
pisliyə tərəf qaçar,
Qan tökməyə tələsər.
17Bir quşun gözü önündə
Tələ qurmaq faydasızdır.
18Çünki onların qurduğu pusqu
öz qanlarını tökmək üçündür,
Güdmələri öz canları üçündür.
19Tamahkarın yolu həmişə belədir,
Tamahı onun canını alar.

### *Hikmət çağırır*

20Hikmət bayırda ucadan çağırır,
Meydanlarda onun səsi ucalır.
21O, səsli-küylü küçələrin başında
çağırır,
Şəhər darvazalarında deyir:
22«Ey cahillər, nə vaxtadək
Cəhaləti sevəcəksiniz?
Nə vaxtadək rişxəndçilər
rişxənddən zövq alacaq,
Axmaqların bilikdən zəhləsi
gedəcək?
23Məzəmmətimdən düzəlsəydiniz,
Ruhumu üstünüzə tökərdim,
Sözlərimi sizə bildirərdim.
24Sizi çağıranda məni rədd etdiniz,
Əlimi uzadanda əhəmiyyət
vermədiniz.
25Bütün nəsihətlərimi boş saydınız,
Məzəmmətlərimi qəbul etmədiniz.
26Ona görə də sizin üzərinizə bəla
gələndə güləcəyəm,
Dəhşət sizi bürüyəndə,
27Tufan kimi dəhşət sizə hücum
çəkəndə,
Sizə qasırğa kimi bəla gələndə,
Dara, əziyyətə düşəndə istehza
edəcəyəm.
28O vaxt məni çağıranlara cavab
verməyəcəyəm,
Səylə axtarsalar da, məni tapa
bilməyəcəklər.
29Çünki onlar biliyə nifrət etdilər,
Rəbdən qorxmaq istəmədilər,
30Nəsihətimi istəmədilər,
Hər məzəmmətimi rədd etdilər.
31Buna görə də öz yollarının
bəhrəsini yeyəcəklər,
Öz nəsihətləri ilə doyacaqlar.
32Cahili özbaşınalığı öldürəcək,
Axmağı laqeydliyi məhv edəcək.
33Mənə qulaq asanlarsa əmin-
amanlıqda yaşayacaq,
Rahatlıq tapacaq, pislikdən
qorxmayacaq».

### *Hikmətin dəyəri*

2 1Oğlum, əgər sözlərimi qəbul
etsən,

**1:16** *Yeş. 59:7; Rom. 3:15* **1:20-21** *Sül. 8:1-3*

20_Pro Lat:Azeri Bible Latin 24.06.2009 11:29 Page 747



Əmrlərimi qorusan,
2Qulağını hikmətə tərəf çevirsən,
Ürəyini dərrakəyə tərəf meyl
etdirsən,
3Sən, həqiqətən, idrakı çağırsan,
Səs ucaldıb dərrakəni səsləsən,
4Bunları gümüş kimi axtarsan,
Gizli xəzinə kimi arasan,
5Onda Rəbb qorxusunu anlayarsan,
Allahı tanıyarsan.
6Çünki Rəbb hikmət verir,
Onun ağzından bilik və dərrakə
çıxır.
7O, əməlisalehlərin sağlam şüurunu
qoruyur,
Kamalla gəzənlərə sipər olur.
8O, ədalətin yollarını qoruyur,
Möminlərin yollarını hifz edir.
9Onda salehlik və ədaləti dərk
edərsən,
İnsafı, bütün yaxşı yolları
tanıyarsan.
10Hikmət qəlbinə dolar,
Bilikdən könlün xoş olar.
11İdrak səni hifz edər,
Dərrakə səni qoruyar.
12Hikmət səni pislərin yolundan,
Sözü məkrli adamlardan qurtarar.
13Onlar düz yolları atıblar,
Qaranlıq yollarda dolanırlar.
14Şər iş görəndə şad olurlar,
Şərin məkrindən xoşhallanırlar.
15Bu adamların yolları əyridir,
Onlar dolaşıq yollarla gedir.

16Hikmət səni yad arvaddan,
Şirin dilli əxlaqsız qadından
qurtarar.
17Bu qadın gənc vaxtı getdiyi ərini
atıb,
Allahının əhdini unudub.
18Onun evi ölümə,
Yolları qəbiristanlığa aparar.
19Yanına gələn kimsə geri qayıtmaz,
Bir daha həyat yollarına çatmaz.

20Beləliklə, yaxşıların yolu ilə
gedərsən,
Salehlərin yollarına bağlı qalarsan.
21Çünki əməlisalehlər yer üzündə
sakin olacaq,
Kamillər burada qalacaq.
22Pis adamlar bu torpaqdan
atılacaq,
Xainlərin kökü buradan
qoparılacaq.

### *Rəbbə güvən*

3 1Oğlum, təlimimi unutma,
Qoy qəlbin əmrlərimə
bağlansın.
2Onlar ömrünü uzadar,
Həyatına illər, firavanlıq artırar.
3Qoy səni xeyirxahlıq və sədaqət
tərk etməsin,
Onları boynuna bağla, ürəyinin
lövhəsinə yaz.
4Onda Allahın və insanların
gözündə
Lütf tapıb şərəfə çatarsan.

5Bütün qəlbinlə Rəbbə güvən,
Öz idrakına etibar etmə.
6Bütün yollarında Onu tanı,
O sənin yollarını düzəldər.
7Öz gözündə özünü hikmətli sanma,
Rəbdən qorx, şərdən çəkin.
8Bu, bədəninə şəfa verər,
Sümüklərinə ilik olar.

9Rəbbi var-dövlətinlə,
Məhsulunun nübarı ilə şərəfləndir.
10Onda anbarların nemətlə dolar,
Şərab çənlərin təzə şərabla daşar.

11Oğlum, Rəbbin verdiyi tərbiyəyə

**3:4** *1Şam. 2:26; Sül. 3:4; Luka 2:52* **3:7** *Rom. 12:16* **3:11** *Əyy. 5:17*

20_Pro Lat:Azeri Bible Latin 24.06.2009 11:29 Page 748



xor baxma,
Onun məzəmmətinə nifrət etmə.
12 Ata sevdiyi oğlunu necə
məzəmmət edərsə,
Rəbb də sevdiyini elə məzəmmət
edər.

### *Hikmətin mədhi*

13 Hikmətə çatan,
Dərrakə tapan insan nə
bəxtiyardır!
14 Bunları qazanmaq gümüş
qazanmaqdan yaxşıdır,
Bu qazanc saf qızıldan dəyərlidir.
15 Hikmət yaqutlardan qiymətlidir,
Xoşladığın bütün şeylər ona tay
deyil.
16 Onun sağ əlində uzun ömür,
Sol əlində sərvət və şərəf var.
17 Onun yolları bəyənilir,
Bütün yolları əmin-amandır.
18 Ona bağlananlar üçün o, həyat
ağacıdır,
Ondan möhkəm yapışanlar
nə bəxtiyardır!

19 Rəbb dünyanın təməlini hikmətlə
qurub,
Dərrakə vasitəsilə göyləri bərqərar
edib.
20 Biliyi ilə dərinliklər yarılıb,
Göylərdən şeh çilənir.

### *Qonşularla davranış*

21 Oğlum, sağlam şüura,
dərrakəyə bağlan,
Bunlardan gözünü çəkmə.
22 Onlar sənin həyatın olar,
Gözəl naxış kimi boynuna
bağlanar.
23 O zaman rahat gəzərsən,
Ayaqların büdrəməz.
24 Qorxusuz, rahat yatarsan,
Şirin yuxu taparsan.
25 Qəfil fəlakətdən,
Pislərə gələn bəladan qorxma.
26 Çünki güvəndiyin Rəbdir,
O qoymaz ki, sən tələyə düşəsən.

27 Əlindən yaxşılıq gəlirsə,
Buna layiq insanlardan əsirgəmə.
28 İmkanın varsa, qonşuna demə:
«Sonra gələrsən, sabah verərəm».
29 Yanında sakit yaşayan qonşun
üçün
Şər qurma.
30 Sənə pislik etməyənlə
Nahaq yerə çəkişmə.

31 Zorakıya qibtə etmə,
O gedən yolların heç birini seçmə.
32 Çünki azğınlar Rəbdə ikrah
yaradar,
Rəbb əməlisalehlərlə dost olar.
33 Rəbb pislərin ocağına lənət edər,
Salehlərin yurduna xeyir-dua
verər.
34 Rəbb rişxəndçilərə istehza edər,
İtaətkarlara isə lütf göstərər.
35 Hikmətlilər şərəfi irs alacaq,
Axmağın nəsibi şərəfsizlik olacaq.

### *Hikmətin üstünlüyü*

4 1 Ey oğullar, atanızın verdiyi
tərbiyə qulağınızda qalsın,
İdrakı dərk etmək üçün diqqətli
olun.
2 Çünki sizə yaxşı dərs verirəm,
Təlimimi atmayın.
3 Mən ata ocağında uşaq olanda,
Anamın yeganə balası olanda
4 Atam mənə təlim verərək dedi:
«Qoy qəlbin sözümə möhkəm
bağlansın,
Əmrlərimə əməl et ki, ömrün uzun

**3:11-12** *İbr. 12:5-6* **3:12** *Vəhy 3:19* **3:34** *Yaq. 4:6; 1Pet. 5:5*

20_Pro Lat:Azeri Bible Latin 24.06.2009 11:29 Page 749



olsun.
5 Hikmət qazan, idrak qazan,
Sözlərimi unutma, sözümdən
çıxma.
6 Hikmətdən ayrılmasan, o səni
qoruyar,
Əgər onu sevsən, səni saxlayar.
7 Hikmət hər şeydən üstündür,
gərək onu qazanasan,
İdraka sahib olmaq üçün var-
yoxunu verəsən.
8 Onu üstün tutsan, səni ucaldar,
Əgər ona bağlansan, səni şərəfə
çatdırar.
9 O sənin başının gözəl çələngi olar,
Başına şərəf tacı qoyar».

10 Oğlum, məni dinlə,
Sözlərimi qəbul etsən, ömrünü
uzadarsan.
11 Sənə hikmət yolunun təlimini
verirəm,
Düz yolda gəzdirirəm.
12 Gedəndə addımların büdrəməz,
Qaçanda ayaqların sürüşməz.
13 Aldığın tərbiyəyə bağlan, ayrılma,
Onu saxla, o sənin həyatındır.
14 Pislərin yoluna ayaq basma,
Şər insanın yolu ilə getmə.
15 Çəkil, bu yolun yaxınından belə,
keçmə,
Uzaq dur, başqa bir səmtdən yolu
keç.
16 Çünki şər adamlar pislik etməsələr,
Yata bilməzlər.
Kimisə yıxmasalar, yuxuları qaçar.
17 Şərin çörəyini yeyərlər,
Zorakılığın şərabını içərlər.
18 Salehlərin yolu isə dan yeri tək
şəfəq saçar,
Nurunu artıraraq gündüzə
qovuşar.
19 Pislərinsə yolu zülmətdir,
Onlar nəyə görə büdrədiklərini
bilməzlər.

20 Oğlum, sözlərimə fikir ver,
Dediklərimə qulaq as.
21 Onları gözlərinin önündən ayırma,
Onları ürəyində qoru.
22 Çünki onları tapanlar
Həyat və cansağlığı tapar.
23 Hər şeydən əvvəl öz ürəyini qoru,
Çünki həyat çeşməsi odur.
24 Əyri danışığı ağzından götür,
Azğın dodaqları özündən
uzaqlaşdır.
25 Gözlərin irəliyə baxsın,
Düppədüz qarşına nəzər sal.
26 Getdiyin yolu düzəlt,
Yollarını sahmana sal.
27 Nə sağa, nə də sola dön,
Ayağını pislikdən çək.

### *Əxlaqsızlıqdan uzaqlaş*

5 1 Oğlum, mənim hikmətimə
diqqət yetir,
Qulağını müdrik sözlərimə tərəf
çevir.
2 Onda dərrakəyə bağlanarsan,
Dilin biliyi kənara atmaz.
3 Əxlaqsız qadının dodağından
sanki bal axır,
Dili şirin, yağdan yumşaqdır.
4 Amma aqibəti yovşan kimi acıdır,
İkiağızlı qılınc kimi kəskindir.
5 Onun ayaqları ölümə aparır,
Onun addımları ölülər diyarına
çatır.
6 Həyat yoluna fikir vermir,
Yolları dolaşıqdır, özü də bilmir.

7 İndi, ey övladlar, mənə qulaq asın,
Dilimdən çıxan sözlərdən
yayınmayın.

**4:26** *İbr. 12:12-13*

20_Pro Lat:Azeri Bible Latin 24.06.2009 11:29 Page 750



8 Belə qadından uzaq ol,
Evinin qapısına yaxın getmə.
9 Yoxsa şərəfini yadlara verərsən,
Ömrünü zalımlara sərf edərsən.
10 Sənin var-yoxunu yadlar yeyər,
Qazancın özgənin evinə gedər.
11 Ömrünün sonu çatanda,
Canında taqət qalmayanda
Ah-nalə çəkərək belə deyərsən:
12 «Mən də tərbiyəyə nifrət etdim,
Ürəyimdə məzəmmətlərə güldüm!
13 Müəllimimin sözünə baxmadım,
Tərbiyəçilərimə qulaq asmadım.
14 Camaatın və icmanın arasında
Az qala hər cür bəlaya
düşəcəkdim».

### *Arvadına vəfalı ol*

15 Öz su anbarından,
Öz quyunun içməli suyundan iç.
16 Niyə sənin qaynaqların küçələrə,
Su arxların meydanlara axıb
getsin?
17 Onlar yalnız səninki olsun,
Yadlara paylama.
18 Qoy çeşmən bərəkətli olsun,
Gənc ikən evləndiyin arvadınla
xoşbəxt yaşa!
19 Sevimli maralın, gözəl ceyranın
Həmişə səni öz döşləri ilə
doydursun,
Onun eşqi ilə məst ol.
20 Oğlum, niyə əxlaqsız qadınla
məst olmalısan,
Yad arvadı qoynuna almalısan?

21 İnsanların yolları Rəbbin gözü
qarşısındadır,
Onların hər addımlarını yoxlayır.
22 Şər insan öz təqsirlərinə görə
tutular,
Günahının kəməndinə dolanar.
23 Tərbiyəsizliyi üzündən həlak olar,
Hədsiz səfehliyi üzündən azar.

### *Tələlərdən ehtiyatlı ol*

6 1 Oğlum, qonşuna zamin durub,
Yadlarla əlbir olub,
2 Ağzından çıxan sözlərlə tələyə
düşmüsənsə,
Ağzından çıxan sözlərlə ələ
keçmisənsə,
3 Demək bu qonşunun əlinə
düşmüsən.
Oğlum, çalış, özünü qurtar:
Get onun ayağına düş,
yalvar-yaxar.
4 Qoy gözünə yuxu getməsin,
Kirpiklərin ağırlaşmasın.
5 Özünü ovçunun əlindən ceyran
kimi,
Quşbazın əlindən quş kimi qurtar.

6 Ey tənbəl, qarışqalara diqqət yetir,
Onların həyatından ibrət götür.
7 Onların nə başçıları var,
Nə nəzarətçiləri, nə də
hökmdarları.
8 Yayda azuqələrini yığar,
Biçin vaxtı özlərinə yem
toplayarlar.
9 Ey tənbəl, nə qədər yatacaqsan?
Nə vaxt yuxudan oyanacaqsan?
10 Bir az da uzanıb yuxuya dalsan,
Əl-qolunu uzadaraq yatsan,
11 Yoxsulluq soyğunçu kimi üstünə
gələr,
Ehtiyac quldur kimi sənə hücum
çəkər.

12 Yaramaz adam – şər insan
Əyri danışaraq dolanar,
13 Göz vurar, ayaqları ilə işarə edər,
Barmaqları ilə göstərər.
14 Qəlbinin məkrli niyyəti var,

**6:10-11** *Sül. 24:33-34*

20_Pro Lat:Azeri Bible Latin 24.06.2009 11:29 Page 751



Həmişə şər qurar, nifaq salar.
15Ona görə başına qəfildən bəla
gələr,
Birdən yıxılıb çarəsiz qalar.

16Rəbbin zəhləsi altı şeydən gedir,
Yeddi şey var, ondan ikrah edir:
17Təkəbbürlə baxan gözlər;
Yalan danışan dil;
Nahaq qan tökən əllər;
18Məqsədi şər olan ürək;
Şərə çatmaq üçün qaçan ayaqlar;
19Nəfsini yalanla çıxaran yalançı
şahid;
Qardaşlar arasında nifaq salan
şəxs.

### *Zinaya qarşı xəbərdarlıq*

20Oğlum, atanın əmrini yerinə yetir,
Ananın öyrətdiklərini atma.
21Onları qəlbinin başına yapışdır,
Həmişə onları boynuna bağla.
22Gəzəndə onlar sənə yol göstərər,
Yatanda səni hifz edər,
Oyananda sənə məsləhət verər.
23Bu əmr çıraqdır, bu təlim nurdur,
Tərbiyə üçün edilən məzəmmət
həyat yoludur.
24Bunlar səni pozğun qadından,
Şirindilli yad arvaddan qoruyar.
25Onun gözəlliyinə aşiq olma,
Onun kirpiklərinin əsiri olma.
26Fahişənin üzündən insan bir tikə
çörəyə möhtac qalar,
Kiminsə zinakar arvadı insanın
qiymətli canını ovlar.
27Bir kişi qoynuna od alanda
Əyin-başı yanmazmı?
28Köz üzərində gəzənin
Ayaqları bişməzmi?
29Qonşusunun arvadının yanına
girənin də halı belədir,
O qadına toxunan cəzasını çəkər.
30Qarnını doydurmaq üçün ac oğru
oğurlarsa,
Kimsə onu qınamaz.
31Amma onu tutsalar, yeddi qat
ödəməlidir,
Evinin var-yoxunu verməlidir.
32Qadınla zina edən qanmazdır,
Özünü məhv etmək istəyən
belə edər.
33Bu kişinin nəsibi kötək,
şərəfsizlikdir,
Biabırçılığı üzərindən silinməz.
34Çünki ərini qeyrət coşdurar,
Ondan amansızcasına qisas alar.
35Heç nə ilə ərinin qarşısını almaq
olmaz,
Nə verilsə belə, o razılaşmaz.

### *Əxlaqsız qadının hiyləsi*

7 1Oğlum, sözlərimə bağlı qal,
Əmrlərimi özündə saxla.
2Əmrlərimə bağlı qalsan,
yaşayacaqsan,
Təlimimi göz bəbəyin kimi qoru.
3Onları üzük kimi barmağına keçir,
Ürəyinin lövhəsinə köçür.
4Hikmətə de: «Bacımsan»,
İdraka söylə: «Yaxın dostumsan».
5Onlar səni əxlaqsız qadından,
Şirindilli yad arvaddan qoruyar.

6Evimin pəncərəsinin şəbəkəsindən
Mən bayıra baxırdım.
7Bir dəstə cahil gənc arasında
Qanmaz bir cavanı gördüm.
8Bu qadının evinin tininə yaxın
küçədən keçirdi,
Onun evi olan yolla gedirdi.
9Alaqaranlıqda, gün batanda,
Gecə düşəndə, hava qaralanda.
10Fahişə libaslı, qəlbi fitnə dolu
bu qadın
Dərhal onu qarşıladı.

20_Pro Lat:Azeri Bible Latin 24.06.2009 11:29 Page 752



11O hay-küyçüdür, o bihəyadır,
Öz evində oturmayandır.
12Gah küçəyə, gah meydanlara
çıxar,
Hər tin başı bir pusqu qurar.
13O, oğlanı tutub öpdü,
Həyasızcasına belə dedi:
14«Ünsiyyət qurbanı kəsməyə borclu
idim,
Əhdimə bu gün əməl etmişəm.
15Ona görə səni görmək üçün
qarşına çıxdım,
Səni çox axtardım, axır ki tapdım.
16Yatağıma Misir kətanından
toxunan
Əlvan üz çəkmişəm.
17Yorğan-döşəyimə
Mirra, əzvay, darçın səpmişəm.
18Gəl sübhə qədər doyunca sevişək,
Eşqdən məst olaq.
19Ərim evdə yoxdur,
Uzaq bir səfərə gedib.
20Pul kisəsini götürüb,
Evə ay bədirlənəndə qayıdacaq».
21Fəndlər işlədib onu tovladı,
Şirin dilə tutub yoldan çıxartdı.
22Kəsilməyə aparılan bir öküz kimi,
Kəməndə salınan bir maral kimi
Bu oğlan o qadının ardınca düşdü.
23Axırda ciyərinə bir ox saplanacaq.
Uçub tez tora düşən quş kimi
Bu oğlan da canının alınacağını
bilmirdi.

24İndi, ey övladlar, mənə qulaq asın,
Dilimdən çıxan sözlərə laqeyd
olmayın.
25Qoyma qəlbin o qadının yollarına
meyl etsin,
Onun yoluna dönmə.
26Çünki o qadın nə qədər insanı
qurban edib,
Nə qədər adamı öldürüb.
27Onun evinin yolu ölülər diyarına
aparır,
Ölüm mənzilinə gedib çatır.

### *Hikmətin nitqi*

8 1Məgər hikmət çağırmırmı,
Məgər dərrakə səslənmirmi
2Uca yerlərdə, yol kənarında,
Yollar ayrıcında dayanıb?
3Darvazaların yanında, şəhərin
qarşısında,
Qapıların kandarında çağırır:
4«Ey insanlar, mən sizi səsləyirəm,
Ey bəşər övladları, sizə xitab
edirəm.
5Ey cahillər, uzaqgörən olun,
Ey axmaqlar, ağıllanın.
6Dinləyin, əla şeylərdən danışıram,
Dilimdən düz sözlər çıxır.
7Ağzım həqiqət söyləyir,
Dilim şərdən iyrənir.
8Ağzımdan yalnız salehlik sözləri
çıxır,
Sözlərimdə nə əyrilik, nə də ki
yalan var.
9Anlayanlar üçün hər şey aydındır,
Bilik qazananlar üçün bu bir
həqiqətdir.
10Gümüşü yox, tərbiyəmi qəbul edin,
Saf qızıldan çox biliyi seçin.
11Çünki hikmət yaqutdan
qiymətlidir,
İnsanın könlü istəyən şeylər
ona tay deyil.

12Mən hikmətəm, uzaqgörənlik
məndə məskən salıb,
Biliyi, dərrakəni tapmışam.
13Rəbb qorxusu pisliyə nifrət
etməkdir,
Lovğalığa, təkəbbürə, pis yola,

**8:1-3** *Sül. 1:20-21*

20_Pro Lat:Azeri Bible Latin 24.06.2009 11:29 Page 753



Hiyləli dilə nifrət edərəm.
14 Nəsihət, sağlam şüur mənimdir,
İdrak mənəm, qüvvəm var.
15 Mənim vasitəmlə şahlar
hökmranlıq edir,
Hökmdarlar ədalətli fərman verir.
16 Ədalətli hakim olan bütün başçılar
və əsilzadələr
Mənim vasitəmlə hökm verir.
17 Məni sevənləri sevirəm,
Məni səylə axtaran tapır.
18 Sərvət və şərəf,
Dağılmaz var-dövlət və salehlik
yanımdadır.
19 Barım qızıldan, saf qızıldan
dəyərlidir,
Bəhərim gümüşdən qiymətlidir.
20 Mən salehlik yolunda,
Ədalət yollarının ortasında
gəzərəm.
21 Məni sevənləri sərvətə çatdıraram,
Xəzinələrini dolduraram.

22 Rəbb Öz yolunun başlanğıcında,
Hər işindən əvvəl mənə malik
oldu.
23 Yaradılışın əzəlindən,
Dünya yaranmazdan əvvəl mən
var idim.
24 Dərin sular olmazdan əvvəl,
Bol sulu çeşmələr olmazdan əvvəl
doğulmuşam.
25 Dağlar yaradılmazdan əvvəl,
Təpələr mövcud olmazdan əvvəl
təvəllüd tapmışam.
26 Rəbb dünyanı, çölü-düzü,
torpaqları yaradanda,
27 Göyləri yaradanda,
Dərinliyin üzü üstündə bir dairə
çəkəndə,
28 Buludları yuxarıda yerləşdirəndə,
Dərinlikdə bulaqları bağlayanda,
29 Sular əmrindən çıxmasın deyə
dənizə sədd çəkəndə,
Yerin bünövrələrini təyin edəndə
30 Rəbbin yanında memar idim.
Hər gün fərəhlənirdim,
Hüzurunda həmişə sevinirdim.
31 Yaratdığı aləmə görə sevinirdim,
Bəşər övladlarına görə
fərəhlənirdim.

32 İndi, ey övladlar, mənə qulaq asın:
Yoluma bağlı qalan nə bəxtiyardır!
33 Verdiyim tərbiyəyə qulaq asın,
Hikmət alın, onu bir tərəfə
atmayın.
34 Mənə qulaq asan,
Hər gün darvazalarım qarşısında
duran,
Qapılarımda dayanıb gözləyən
nə bəxtiyardır!
35 Çünki məni tapan həyat tapar,
Rəbbi razı salar.
36 Məni əldən verən canına
qəsd edər,
Mənə nifrət edənlərin hamısı
ölümü sevər».

### *Hikmət yolu*

9 1 Hikmət evini qurub,
Yeddi dirəyini yonub,
2 Heyvanlarını kəsib,
Şərabını hazırlayıb,
Süfrəsini də düzəldib.
3 Göndərdiyi kənizlər
Şəhərin uca yerlərindən car
çəkərlər:
4 «Gəlin bura, ey cahillər!»
Qanmazlara belə deyərlər:
5 «Gəlin, çörəyimdən yeyin,
Hazırladığım şərabdan için.
6 Cəhaləti atın, ömür sürün,
İdrak yolu ilə düz gedin».

---

**8:22** *Vəhy 3:14-15*

20_Pro Lat:Azeri Bible Latin 24.06.2009 11:29 Page 754



7Rişxəndçini tənqid edən özünü
rüsvayçılığa salar,
Şər adamı danlayan axırda
ləkələnər.
8Rişxəndçini danlama, yoxsa sənə
nifrət edər,
Müdrik insanı danlasan,
səni sevər.
9Hikmətliyə öyüd versən, hikmətini
artıracaq,
Salehə bilik öyrətsən, müdrikliyini
çoxaldacaq.

10Rəbb qorxusu hikmətin
başlanğıcıdır,
Müqəddəsi tanımaq idraklı
olmaqdır.
11Hikmətin vasitəsilə ömrün-günün
çoxalar,
Həyatına illər əlavə olar.
12Əgər hikmət qazansan, özünə xeyir
verərsən,
Əgər rişxənd etsən, zərərini özün
çəkərsən.

### *Axmaqlıq yolu*

13Axmaq qadın hay-küy salır,
Cahildir, heç nə qanmır.
14O, evinin qapısı önündə oturub,
Şəhərin uca yerlərində kətil üstə
əyləşib,
15Yoldan ötənləri,
Düz yolda olanları çağırır:
16«Bura gəlin, ey cahillər!»
Qanmazlara belə deyir:
17«Oğurluq su şirin olar,
Gizli yeyilən çörəyin başqa ləzzəti
var».
18Lakin yanına gələnlər bilməzlər ki,
Orada ölüm var,
Bu qadının çağırdıqları ölülər
diyarının dərinliyindədir.

### *Məsəllər*

10 1Süleymanın məsəlləri:

Hikmətli oğul atasını sevindirər,
Axmaq oğul anasına dərd gətirər.

2Şər yolla yığılan xəzinədən fayda
götürmək olmaz,
Amma salehlik insanı ölümdən
qurtarar.

3Rəbb saleh insanı ac qoymaz,
O, acgöz pisləri doydurmaz.

4Tənbəlin əlləri onu yoxsullaşdırar,
Çalışqanın əli sərvət qazanar.

5Ağıllı oğul yayda məhsul yığar,
Biçin vaxtı yatan oğul rüsvay olar.

6Saleh insanın başından bərəkət
yağar,
Şər adamın dili zorakılığı gizli
saxlar.

7Salehlərin həyatına baxmaq
xeyir-dua gətirər,
Şər adamın adı batar.

8Qəlbən hikmətli olan əmrləri
qəbul edər,
Səfeh boşboğazlığı üzündən
itib-batar.

9Kamalla gəzib-dolaşan dinc yaşar,
Yolu əyri olanlar üzə çıxar.

10Göz vuran başına bəla açar,
Səfeh boşboğazlığı üzündən
itib-batar.

11Salehin ağzı həyat qaynağı olar,
Amma şər adamın dili zorakılığı
gizli saxlar.

12Nifrət nifaq yaradar,

**9:10** *Əyy. 28:28; Zəb. 111:10; Sül. 1:7*

20_Pro Lat:Azeri Bible Latin 24.06.2009 11:29 Page 755



Lakin məhəbbət bütün günahları
örtər.

13 Dərrakəlinin dilindən hikmət
tökülər,
Qanmaz kürəyindən kötəklənər.

14 Hikmətli adamlar bilik toplar,
Səfehin boşboğazlığı onu bəlaya
yaxınlaşdırar.

15 Zənginin var-dövləti ona qalalı
şəhərdir,
Kasıbı yoxsulluq bəlaya salar.

16 Salehin mükafatı həyatdır,
Şər adamınsa qazancı günahdır.

17 Tərbiyəyə bağlanan həyat yolunda
olar,
Məzəmməti rədd edən yolunu
azar.

18 Nifrətini gizlədən yalan danışar,
Axmaq hər yana böhtanlar yayar.

19 Çox sözlərlə günahı azaltmaq
olmaz,
Dilini saxlayan ağıllıdır.

20 Saleh insanın dili saf gümüşə
oxşar,
Şər adamın qəlbinin dəyəri
az olar.

21 Saleh öz dili ilə çox adamı
doydurar,
Səfeh qanmazlığı üzündən
həlak olar.

22 Rəbbin xeyir-duası insana sərvət
gətirər,
Daha ona qüssə verməz.

23 Axmaq üçün şər iş görmək bir
əyləncədir,
Dərrakəlininsə hikməti var.

24 Şər adam nədən qorxursa,
başına gələr,
Saleh isə muradına çatar.

25 Qopan tufan şəri süpürüb aparar,
Salehin təməli əbədi qalar.

26 Dişlərə sirkə, gözlərə tüstü necə
təsir edirsə,
Tənbələ iş buyuran bunu elə
hiss edər.

27 Rəbb qorxusu ömür uzadar,
Şər insanların ömründən illər
azalar.

28 Salehləri sevinc gözlər,
Şər insanların ümidi boşa çıxar.

29 Kamilin pənahı Rəbbin yoludur.
Şər iş görənin başı bəla ilə
doludur.

30 Saleh heç vaxt sarsılmaz,
Şər insanlar yer üzündə qalmaz.

31 Salehin ağzı hikmətlə çiçəklənər,
Hiyləli dillər kəsilər.

32 Saleh insanın dili razı salmağı
bacarar,
Şər insanın ağzından hiyləli sözlər
çıxar.

11 1 Aldadıcı tərəzi Rəbdə ikrah
yaradar,
Rəbb düz çəki daşından razı qalar.

2 Lovğalıq gələndə şərəfsizlik gətirər,
Hikmət itaətkarın yanına gələr.

3 Əməlisalehi kamillik yolu aparar,
Xəyanətkar əyriliyindən
məhv olar.
4 Heç kimi var-dövləti qəzəb
günündən xilas etməz,
Amma salehlik insanı ölümdən

**10:12** *Yaq. 5:19-20; 1Pet. 4:8*

qurtarar.

5Kamil insanın yolunu salehliyi
düz edər,
Şər adamı pisliyi yıxar.

6Əməlisalehi salehliyi qurtarar,
Xaini acgözlüyü tələyə salar.

7Şər insan ölər, ümidi də boşa
çıxar,
Pislərin arzusu itib-batar.

8Saleh dardan qurtular,
Onun yerinə pis insan dara düşər.

9Allahsızın dili qonşusunu
məhv edər,
Bilik salehi xilas edər.

10Salehlər xeyrə çatanda bütün şəhər
şad olar,
Şər adamlar öləndə sevinc harayı
qalxar.

11Əməlisalehlərin alqışı şəhəri şərəfə
çatdırar,
Lakin şərin qarğışı oranı viran
qoyar.

12Qanmaz qonşusuna xor baxar,
Dərrakəli insan dinc dayanar.

13Sözgəzdirən sirləri açıb yayar,
Etibarlı adam sözü gizli saxlar.

14Düz məsləhət verilməyən yerdə
xalq yıxılar,
Doğru nəsihət verən çoxdursa,
xalq qurtuluşa çatar.

15Özgəyə zamin duran özünü bəlaya
salar,
Belə zaminlikdən zəhləsi gedən
dinc yaşar.

16Mehriban qadın şərəfdən,
Zalım insan isə sərvətdən yapışar.

17İnsanın sadiqliyi ona xeyir gətirər,
Qəddar adam özünə əzab verər.

18Şər adam saxta mükafat qazanar,
Salehlik toxumu əkən, həqiqətən,
onun əvəzini alar.

19Sidq ürəkdən saleh olan həyata
qovuşar,
Şərin ardınca düşən ölümə çatar.

20Əyri ürəkli olmaq Rəbdə ikrah
yaradar,
O, yolu kamil olanlardan razı
qalar.

21Doğrudan da, pis cəzasız qalmaz,
Salehlərin nəsli xilas olar.

22Bir gözəl qadının xoş rəftarı
olmazsa,
Burnuna qızıl halqa taxılmış
donuza bənzər.

23Salehlər yalnız yaxşılıq arzular,
Şər adama qəzəb nəsib olar.

24Əliaçıq adamın bərəkəti artar,
Başqasının qazancını yeyən
ehtiyaca düşər.

25Comərd bolluğa yetişər,
Su verənə su verilər.

26Taxılı anbarda gizlədənə camaat
lənət oxuyar,
Onu satanın başına bərəkət yağar.

27Səylə yaxşılığın ardınca gedən
lütf axtarar,
Şər ardınca düşən isə başını
bəlaya salar.

28Sərvətinə güvənənlər yıxılar,
Salehlər isə yaşıl yarpaq kimi
təzələnər.

29Külfətini əzaba salanın nəsibi
yel tək sovrular,

20_Pro Lat:Azeri Bible Latin 24.06.2009 11:29 Page 757



Qəlbində hikmət olana səfeh
qul olar.

30 Salehin barı həyat ağacıdır,
Hikmətli insan canları qurtarar.

31 Əgər bu dünyada salehlərə belə,
cəza verilirsə,
Pislərə, günahkarlara gör nə qədər
cəza verilər!

12 1 Tərbiyəni sevən biliyi sevər,
Məzəmmətə nifrət edən
şüursuzdur.

2 Rəbb yaxşı adamdan razı qalar,
Pisniyyət adamı isə məhkum edər.

3 İnsan şərlə möhkəm olmaz,
Salehinsə kökü sarsılmaz.

4 Xeyirxah arvad ərinin tacıdır,
Adbatıran qadın çürümüş sümüyə
oxşar.

5 Salehlərin məqsədi ədalətdir,
Şər insanların məsləhəti
hiyləgərlikdir.

6 Şər adamların sözləri ölüm üçün
pusqu qurar,
Əməlisalehlər dili ilə xilas olar.

7 Pislər yıxılıb məhv olar,
Salehin evi dağılmaz.

8 İnsan ağıllı sözlərinə görə
tərifl ənər,
Qəlbində hiylə olanlara xor
baxılar.

9 Şöhrətsiz, lakin qul sahibi olan
insan
Lovğalanan, lakin çörəyə möhtac
adamdan yaxşıdır.

10 Saleh insan hətta heyvanlarının
ehtiyacını duyar,
Şər insanın mərhəmətində də
zalımlıq var.

11 Torpağını əkib-becərən doyunca
çörək yeyər,
Qanmaz boş şeylərin ardınca
gedər.

12 Şər adam pislərin şikarına qibtə
edər,
Salehin kökü pöhrələnər.

13 Pis adamı itaətsiz dili tələyə salar,
Saleh dara düşsə də, oradan
salamat qurtarar.

14 İnsanın dilindən yaxşı söz çıxarsa,
bol xeyir tapar,
Əlinin zəhmətinin əvəzini alar.

15 Səfehin yolu öz gözündə düz
görünər,
Hikmətli adam nəsihəti dinlər.

16 Səfeh dərhal qəzəbini üzə verər,
Uzaqgörən şərəfsizliyin üstünü
örtər.

17 Doğru şahid həqiqəti danışar,
Yalançı şahid hiylə qurar.

18 Düşünmədən danışanın dili qılınc
kimi yaralar,
Hikmətlinin dili isə insanları
sağaldar.

19 Düz söz əbədi yaşar,
Yalanın ömrü az olar.

20 Şər quranın qəlbində hiylə olar,
Nəsihət verib sülhə çağıran
sevinc tapar.

21 Saleh heç vaxt bəlaya düşməz,
Pislərin başı bəla ilə dolu olar.

22 Rəbb yalançı dilə ikrah edər,
Həqiqəti yerinə yetirənlərdən isə

**11:31** *1Pet. 4:18*

20_Pro Lat:Azeri Bible Latin 24.06.2009 11:29 Page 758



razı qalar.

23Uzaqgörən bildiyini özü üçün
saxlar,
Axmaq qəlbinin səfehliyini hamıya
yayar.

24Çalışqanın əli özünü ağa edər,
Tənbəllik insanı qula çevirər.

25Qəlbi narahat olanın qəddi əyilər,
Xoş söz könlü şad edər.

26Saleh insan qonşusuna da yol
göstərər,
Lakin şər insanın yolu dolaşıqdır.

27Tənbəlin əlinə ov düşsə də, onu
bişirməz,
Çalışqan qiymətli sərvətə çatar.

28Salehliyin yollarında həyat var,
Kim bu yolla getsə, orada ölüm
tapmaz.

13 1Hikmətli oğul ata tərbiyəsinə
qulaq asar,
Rişxəndçi iradı qulaq ardına
vurar.

2İnsanın dilində yaxşı söz olsa,
onun xeyrini yeyər,
Xain zorakılıq istər.

3Dilini saxlayan canını qoruyar,
Boşboğaz başını bəlaya salar.

4Tənbəl arzuladığına çatmaz,
Çalışqan bolluğa qovuşar.

5Saleh adam yalana nifrət edər,
Şər insanın sözləri xəcalət və
rüsvayçılıq gətirər.

6Kamillik yolunda olanı salehlik
qoruyar,
Günahkarı şər yıxar.

7Adam var ki, heç nəyi yoxdur,
özünü varlı göstərir,
Adam var ki, malı çoxdur,
özünü yoxsul göstərir.

8Sərvət insanın canını təhlükədən
qurtarar,
Yoxsul isə hədə-qorxu eşitməz.

9Saleh insanların işığı könlü
sevindirər,
Şər insanların çırağı sönər.

10Təkəbbürdən ancaq münaqişə
yaranar,
Yaxşı nəsihətə qulaq asanın
hikməti var.

11Kələklə gələn sərvət azalar,
Zəhmətlə qazanılan sərvət isə
artar.

12Gecikən ümid ürəyi xəstələndirir,
Arzuya çatmaq həyat ağacıdır.

13Öyüdə xor baxan öz canını
həlak edər,
Əmrə ehtiram edənlərə mükafat
verilər.

14Hikmətli adamın təlimi həyat
qaynağıdır,
İnsanı ölüm tələsinə düşməkdən
geri qaytarır.

15Dərin ağlı olan lütf qazanır,
Xainin yolu dolaşıqdır.

16Uzaqgörən hər gördüyü işi bilir,
Axmaq öz səfehliyini hamıya
göstərir.

17Pis qasid bəlaya düşər,
Etibarlı elçi şəfa verər.

18Tərbiyəni rədd edən yoxsullaşıb
şərəfdən düşər,
Məzəmməti qəbul edən şərəfə
yetişər.

20_Pro Lat:Azeri Bible Latin 24.06.2009 11:29 Page 759



19Arzuya çatmaq qəlbə, cana şirin
gələr,
Axmaq pislikdən dönməyə ikrah
edər.

20Hikmətli ilə oturub-duran hikmət
qazanar,
Axmaqlarla ayaqlaşan
bədbəxt olar.

21Günahkarı şər qovar,
Salehin yaxşı bir əvəzi var.

22Yaxşı insan nəvələrinə də irs qoyar,
Günahkarın yığdığı sərvət salehə
qalar.

23Yoxsulların əkini bol bəhrə
versə də,
Ədalət olmayan yerdə bada gedər.

24Oğlundan kötəyi əsirgəyən sanki
ona nifrət edər,
Oğlunu sevən ona düzgün tərbiyə
verər.

25Saleh yeyib doyar,
Şər adamsa ac qalar.

14 1Hikmətli qadın evini qurar,
Səfeh qadın onu öz əli ilə
uçurar.

2Düz yol tutan Rəbdən qorxar,
Yolunu azan Ona xor baxar.

3Səfeh lovğa sözlərinə görə kötək
qazanar,
Hikmətlinin dili onu qoruyar.

4Öküz olmayan yerdə axur təmiz
olar,
Amma bol məhsul öküzün gücü ilə
yaranar.

5Doğru şahid yalan deməz,
Yalançı şahid yalandan üzə durar.

6Rişxəndçi hikmət axtaranda onu
tapmaz,
Dərrakəli adama bilik tapmaq
asan olar.

7Axmağın qarşısından çəkil,
Onun dilində ağıllı söz tapmazsan.

8Uzaqgörən hikməti ilə öz yolunu
anlar,
Axmaq səfehliyi ilə öz-özünü
aldadar.

9Səfehlər günaha rişxənd edər,
Əməlisalehlər bir-birini məmnun
edər.

10Ürək öz dərdini bilər,
Özgələr onun sevincinə şərik
olmaz.

11Şərin evi tar-mar olar,
Əməlisalehlərin yurdu çiçək açar.

12Yol var ki, insanın qarşısında
düz görünür,
Amma sonu ölümdür.

13Ürək güləndə də qəmli olar,
Sevincin sonunda da kədər var.

14Azğın ürəklilər öz yollarının
bəhrəsini doyunca yeyir,
Yaxşı adam isə əməlinin əvəzini alır.

15Cahil hər sözə inanar,
Uzaqgörən hər addımına nəzər
salar.

16Hikmətli qorxub pislikdən dönər,
Axmaq ehtiyatsızdır, özünə
güvənər.

17Hövsələsiz səfeh-səfeh iş görər,
Pisniyyət adama nifrət edilər.

18Cahil səfehliyi irs alar,
Uzaqgörənin başına bilik tacı

**14:12** *Sül. 16:25*

20_Pro Lat:Azeri Bible Latin 24.06.2009 11:29 Page 760



qoyular.

19Pislər yaxşıların qarşısında,
Şər adam isə salehin qapısında
əyilər.

20Yoxsula qonşusu da nifrət edər,
Zəngini isə çox adam sevər.

21Qonşusuna xor baxan günaha
batar,
Məzluma səxavət göstərən nə
bəxtiyardır!

22Şər quranlar yolundan
azmırlarmı?
Məqsədi xeyirxahlıq olan
xeyirxahlığa, sədaqətə çatar.

23Hər zəhmətdə bir fayda var,
Boş sözlər insanı ehtiyac içində
qoyar.

24Hikmətlinin başına sərvət tacı
qoyular,
Axmaqlar səfehliyi ilə tanınar.

25Doğru şahid canları qurtarar,
Yalançı şahid hiylə qurar.

26Rəbdən qorxan tam arxayındır,
Çünki Rəbb onun övladlarının
pənahıdır.

27Rəbb qorxusu həyat qaynağıdır,
İnsanı ölüm tələsinə düşməkdən
geri qaytarır.

28Padşahın əzəməti xalqın çoxluğu
ilə bilinər,
Əgər təbəələri olmasa, hökmdar
süqut edər.

29Gec qəzəblənənin böyük dərrakəsi
var,
Hövsələsizlərdən səfehlik çıxar.

30Ürəyin rahatlığı cana həyat verər,
Paxıllıqsa sümükləri çürüdər.

31Kasıba zülm edən Yaradanına xor
baxar,
Yoxsula lütf göstərən Ona
hörmət edər.

32Şər adam pisliyi üzündən qovular,
Salehin ölümündə belə, pənahı var.

33Hikmət dərrakəlinin qəlbində
özünə rahat yuva qurar,
Hətta axmaqların arasında da
bəlli olar.

34Salehlik bir milləti ucaldar,
Günah ümmətləri utandırar.

35Padşah ağıllı qulundan razı qalar,
Adbatıransa onun qəzəbinə düçar
olar.

15 1Həlim cavab hirsi yatırar,
Sərt söz qəzəbi alovlandırar.

2Hikmətlinin dili biliyi mədh edər,
Axmaqların dilindən səfehlik
tökülər.

3Rəbbin gözü hər yerə baxar,
Pislərə, yaxşılara nəzər salar.

4Şəfa gətirən dil həyat ağacıdır,
Əyri dil ürək qırar.

5Səfeh ata tərbiyəsini ələ salar,
Məzəmməti qəbul edən uzaqgörən
olar.

6Salehin evində böyük xəzinə yaşar,
Şər insanın isə gəlirində əzab var.

7Hikmətlinin dili bilik səpələyir,
Axmağın qəlbi bunu edə bilmir.

8Rəbb şər insanın etdiyi qurbandan
ikrah edir,
Əməlisalehlərin duasından isə
razı qalır.

9Rəbb şər insanın yollarından

20_Pro Lat:Azeri Bible Latin 24.06.2009 11:29 Page 761



ikrah edər,
Amma salehliyin ardınca gedəni
sevər.

10 Düz yolu buraxana şiddətli töhmət
verilər,
Məzəmmətə nifrət edənə ölüm
gələr.

11 Ölüm və Həlak yeri Rəbbə
aşkardır,
Gör O, insan ürəyindən necə
agahdır.

12 Rişxəndçi iradı sevməz,
Hikmətlilərin yanına gəlməz.

13 Qəlbin sevinci üzü xoş edər,
Ürəyin kədəri könlü sındırar.

14 Dərrakəlinin könlü bilik axtarar,
Axmaqların ağzı səfehliklə
qidalanar.

15 Məzlumun hər günü qaradır,
Ürəyi bəxtəvərin elə bil daima
ziyafəti var.

16 Rəbb qorxusu ilə qazanılan az şey
Qayğı ilə yığılan böyük xəzinədən
yaxşıdır.

17 Sevgi dolu bir yerdə göyərti yemək
Nifrət dolu bir yerdə yağlı dana əti
yeməkdən yaxşıdır.

18 Kəmhövsələ dava yaradar,
Səbirli münaqişəni sovuşdurar.

19 Tənbəlin yolunu tikanlar basar,
Əməlisalehlərin yolu baş yoldur.

20 Hikmətli oğul atasını sevindirər,
Axmaq anasına xor baxar.
21 Qanmaz səfehlikdən sevinər,
Dərrakəli düz yolla gedər.

22 Məsləhətsiz niyyət boşa çıxar,
Doğru nəsihət verən çoxdursa,
uğur qazandırar.

23 İnsan münasib cavab versə,
şad olar,
Sözü yerində demək nə yaxşıdır!

24 Ağıllı insan aşağıdan – ölülər
diyarından ayrılmaq üçün
Həyat yolunu tutub yuxarı gedər.

25 Rəbb təkəbbürlünün evini yıxar,
Dul qadının sərhədini qoruyar.

26 Pislərin məqsədləri Rəbdə ikrah
yaradar,
Ona xoş gələnlərin sözlərini təmiz
sayar.

27 Tamahkar külfətini əzaba salar,
Rüşvətə nifrət edənin ömrü uzun
olar.

28 Saleh insan cavab verməzdən əvvəl
qəlbində düşünər,
Şər insanın dilindən pislik tökülər.

29 Rəbb şər adamdan gen dayanar,
Saleh insanların duasına
qulaq asar.

30 Nurlu gözlər qəlbi sevindirər,
Yaxşı xəbər qəddi düzəldər.

31 Həyatverici məzəmmətə qulaq
asan
Hikmətlilərin içərisində yaşar.

32 Tərbiyəni rədd edən öz canına
xor baxar,
Məzəmmətə qulaq asan anlayış
qazanar.

33 Rəbb qorxusu hikmət tərbiyəsi
verər,
İtaətkarlıq şərəfdən əvvəl gələr.

16 1 Ürəyin fikirləri insandan,
Dilin cavabı isə Rəbdəndir.
2 İnsanın bütün yolları öz gözündə

20_Pro Lat:Azeri Bible Latin 24.06.2009 11:29 Page 762



təmiz sayılar,
Lakin Rəbb ürəkləri yoxlar.

3 Görəcəyin işləri Rəbbə ver,
Onda niyyətlərin yerinə yetər.

4 Rəbb hər şeyi məqsədinə müvafiq yaradıb,
O, pis insanı bəla günü üçün yaradıb.

5 Rəbb qəlbi təkəbbürlülərdən ikrah edər,
Doğrudan da, onlar cəzasız qalmaz.

6 Xeyirxahlıq və sədaqət hər təqsiri kəffarə edər,
İnsan Rəbb qorxusuna görə pislikdən dönər.

7 Rəbb insanın həyatından razı qaldısa,
Düşmənlərini belə, onunla barışdırar.

8 Salehliklə qazanılan az şey
Haqsız yolla olan bol gəlirdən yaxşıdır.

9 İnsan ürəyində özü üçün yol qurar,
Amma Rəbbin verdiyi istiqamətlə addımlar.

10 Padşah uzaqgörənliklə dilindən sözlər çıxarar,
Qoy onda məhkəmədə ədalətdən yan keçməsin.

11 Rəbb düzgün tərəzi və çəkini tələb edər,
O, torbadakı hər çəki daşını müəyyən edər.

12 Şər iş görmək padşahlarda ikrah yaradar,
Çünki salehliklə taxtlar möhkəm olar.

13 Saleh adamın dili padşahları razı salar,
Onlar düz danışanı sevər.

14 Padşahın hiddəti ölüm elçisidir,
Amma hikmətli insan bu hiddəti yatırar.

15 Padşahın üzü nuranidirsə, demək, həyat var,
Razılığı yaz yağışı gətirən buluda oxşar.

16 Qızıldan çox hikmət qazanmaq yaxşıdır,
Gümüşü yox, idrakı yığmaq üstün tutular.

17 Əməlisalehlər pislikdən dönmək yolunu tutar,
Yoluna diqqət edən canını qoruyar.

18 Əcəldən əvvəl təkəbbür gələr,
Fəlakətdən əvvəl lovğalıq ruhu gələr.

19 Məzlumlar arasında sadə qəlbli olmaq
Təkəbbürlülərlə talan malı bölüşdürməkdən yaxşıdır.

20 Sözdən hikmət alan xeyir tapar,
Rəbbə güvənən insan nə bəxtiyardır!

21 Qəlbində hikmət olan dərrakəli adlanar,
Şirin dilli olan müdrikliyi artırar.

22 Ağıl insan üçün həyat çeşməsidir,
Axmağa tərbiyə vermək səfehlikdir.

23 Hikmətlinin ürəyi dilinə tərbiyə verir,
Ağzındakı müdrik sözləri artıq edir.

20_Pro Lat:Azeri Bible Latin 24.06.2009 11:29 Page 763



24Xoş sözlər sanki pətəkdə baldır,
Cana şirinlik, sümüklərə şəfadır.

25Yol var ki, insanın qarşısında
düz görünür,
Amma sonu ölümdür.

26Əməkçi qarnı üçün zəhmət çəkir,
Aclıq onu məcbur edir.

27Yaramaz şər quyusu qazar,
Dili alov kimi yandırıb-yaxar.

28Hiyləgər adam dava yaradar,
Qeybətçi əziz dostları ayırar.

29Zorakı qonşularını aldadar,
Onları yaxşı olmayan yola aparar.

30Niyyəti hiyləli olan göz vurar,
Dodaq büzər, şər qurar.

31Ağaran saçlar şərəf tacıdır,
Salehlik yolunun qazancıdır.

32İgid olmaqdan səbirli olmaq
yaxşıdır,
Nəfsə hakim olmaq şəhəri
almaqdan üstündür.

33Ətəyin üstünə püşk atılar,
Amma hökm Rəbdən gələr.

17 1Quru bir loğması olan
dinc ev
Münaqişəli olan, ziyafət dolu
evdən yaxşıdır.

2Ağıllı nökər adbatıran oğlun
ağası olar,
Qardaşlar arasında miras payı
alar.

3Qızıl-gümüş isti kürədə yoxlanar,
Rəbb isə ürəyi araşdırar.

4Pis adamın diqqəti şər ağızdadır,
Yalançı fitnəkarın sözlərinə
qulaq asır.

5Yoxsula rişxənd edən Yaradanına
xor baxır,
Başqasının bəlasına sevinən cəzasız
qalmır.

6Nəvələr ahılların tacıdır,
Oğulların şərəfi atalarıdır.

7Sarsağa bəlağətli[a] söz yaraşmadığı
kimi
Əsilzadəyə də yalançı dil
yaraşmaz.

8Rüşvət verənin gözündə rüşvət
bir tilsimdir,
Çünki hansı tərəfə getsə,
uğur gətirir.

9Günahı örtən məhəbbət axtarar,
Sözgəzdirən əziz dostları ayırar.

10Qanan insan üçün bir irad
Axmağa vurulan yüz zərbədən də
artıq təsir edir.

11Pis insan ancaq üsyankarlıq
axtarar,
Onun əleyhinə qəddar qasid
göndərilər.

12Balalarını itirmiş bir ayıya rast
gəlmək
Səfahətə batmış axmaqla
rastlaşmaqdan yaxşıdır.

13Kim yaxşılıq əvəzinə pislik etsə,
Evindən pislik ayrılmaz.

14Davanın başlanması su bəndinin
açılmasına bənzər,
Dava başlanmamış münaqişəni
tərk et.

15Şərə haqq vermək, salehi məhkum
etmək –

a **17:7** *Bəlağətli* – inandırıcı, gözəl və aydın nitq. **16:25** *Sül. 14:12*

20_Pro Lat:Azeri Bible Latin 24.06.2009 11:29 Page 764



Hər ikisi Rəbdə ikrah yaradır.

16Axmaq hikmət qazanmaq istəməz,
Bunun üçün pul sərf etmək fayda verməz.

17Dost hər zaman sevər,
Qardaş dar gün üçün doğular.

18Qanmaz başqası ilə əlbir olar,
O, qonşusuna zamin durar.

19İtaətsizliyi sevən münaqişəni sevər,
Qapısını ucaldan əcəlini səslər.

20Əyri ürəkli xeyir tapmaz,
Hiyləgər dilli insanı bəlaya salar.

21Axmağın atası dərdə düşər,
Sarsağın atasının sevinci itər.

22Ürək sevinci can üçün ən yaxşı məlhəmdir,
Könlün sınması sümükləri qurudar.

23Şər qoltuğuna rüşvət götürər ki,
Ədalət yollarını pozsun.

24Qanan adam hikmətə baxar,
Axmağın gözləri dünyanın o tayını axtarar.

25Axmaq oğul atasına qəm-kədər verər,
Onu doğan anasını qubarladar.

26Saleh insanı cərimə etmək yaxşı deyil,
Əsilzadəni düzlüyünə görə döymək yaxşı deyil.

27Çoxbilən az danışar,
Müdrik həlimlik ruhunda olar.

28Səfeh belə, sakit dayansa, hikmətli hesab edilər,
Ağzını yumsa, dərrakəli görünər.

## 18

1Tənhalığı sevən niyyətinin ardınca düşür,
Sağlam şüura zidd gedir.

2Axmaq dərrakəni deyil,
Fikrini ortaya tökməyi sevir.

3Şər insanla hörmətsizlik,
Şərəfsizliklə rüsvayçılıq gələr.

4Dilin sözlərindən dərin sular yaranar,
Hikmət qaynağından çay axar.

5Məhkəmədə salehi haqsız çıxarmaq üçün
Pis adama tərəfkeşlik etmək yaxşı deyil.

6Axmağın dili münaqişəyə girişər,
Ağzı özünü döydürər.

7Axmağın ağzı onu bəlaya salar,
Dili canına tələ qurar.

8Qeybətçinin sözləri şirin tikələrə bənzər,
Mədənin ən dərin yerlərinə düşər.

9Ləng işləyən dağıdıcıya yoldaşdır.

10Rəbbin adı qüvvətli bir qaladır,
Saleh qaçıb ona pənah aparır.

11Varlı üçün sərvəti ona qala şəhəridir,
Öz gümanında özü üçün pənah hasarı tikir.

12Ürəyin təkəbbürü əcəldən əvvəl gələr,
İtaətkarlıq şərəfdən əvvəl gələr.

13Eşitməzdən qabaq cavab vermək
Səfehlik və rüsvayçılıqdır.

14Xəstənin ürəyi bütün ağrıları çəkər.
Amma ürəyi sınıqdırsa, buna necə dözər?

20_Pro Lat:Azeri Bible Latin 24.06.2009 11:29 Page 765



15Dərrakəli ürək bilik qazanar,
Hikmətlinin qulağı bilik axtarar.

16İnsanın hədiyyəsi ona yol açar,
Böyük adamların hüzuruna aparar.

17İddiasını əvvəl deyən haqlı
görünər,
Amma əleyhdarı gəlib onu
istintaq edər.

18Püşk atmaq davaları yatırar,
Savaşanları bir-birindən ayırar.

19İncik qardaşın könlünü almaq
qalalı şəhəri almaqdan daha
çətindir,
Belə davalar qapısı cəftəli qala
kimidir.

20İnsanın qarnı ağzının bəhəri ilə,
Dilinin səmərəsi ilə doyar.

21Ölüm və həyat dilin əlindədir,
Onu sevənlər barından yeyir.

22Arvad alan uğur qazanar,
Rəbbin razılığını alar.

23Yoxsul rəhm istəyər,
Zəngin isə sərt cavab verər.

24Dost çoxaldan öz-özünü yıxar,
Amma qardaşdan daha yaxın dost
da var.

19 1Kamalla yaşayan yoxsul
insan
Şər danışan axmaqdan yaxşıdır.

2Bilik yoxdursa, həvəs yaxşılıq
edə bilməz.
Tələsən tərsə düşər.

3İnsan öz səfehliyi ilə yolunu alt-üst
edər,
Ürəyində isə Rəbbə hiddətlənər.

4Var-dövlət dost artırar,
Kasıbı isə dostları atar.

5Yalançı şahid cəzasız qalmaz,
Yalandan üzə duran qurtuluş
tapmaz.

6Çoxları nəcabətlinin üzünü görmək
istər,
Səxavətli adamla çoxları
dostluq edər.

7Yoxsuldan qardaşının da zəhləsi
gedər,
Dostları ondan lap uzaq gəzər,
Yalvararaq ardınca düşsə də,
yaxınına gəlməz.

8Anlayış qazanan öz canını sevər,
Dərrakəyə bağlanan uğur qazanar.

9Yalançı şahid cəzasız qalmaz,
Yalandan üzə duran həlak olar.

10Axmağa dəbdəbəli həyat
yaraşmadığı kimi
Qulun ağalara hökm etməsi də
yaraşmaz.

11İnsanın ağlı hiddəti ləngidər,
Başqasının günahını bağışlamaq
ona şərəf gətirər.

12Padşahın qəzəbi aslan nərəsinə
bənzər,
Razılığı çəmənə düşən şehə bənzər.

13Axmaq oğul atasına bəla olar,
Davakar arvad kəsilməyən
damcıya oxşar.

14İnsana ev, var-dövlət atalardan
miras qalar,
Ağıllı arvadı isə Rəbb nəsib edər.

15Tənbəllik insana dərin yuxu
gətirər,
Avaralıq insanı ac qoyar.

16Əmrə əməl edən canını saxlar,

Yoluna baxmayan həlak olar.

17Kasıba səxavət göstərən sanki
Rəbbə borc verər,
Çünki onun əvəzi Rəbdən gələr.

18Ümid varkən oğluna tərbiyə ver,
Ölümünə bais olma.

19Kəmhövsələ insan cəriməyə düşər,
Onu qurtarsan belə, yenə də
davam edər.

20Nəsihətə qulaq as, tərbiyəni
qəbul et,
Bunun nəticəsində hikmətli
olarsan.

21İnsanın qəlbində çox amalı var,
Amma Rəbbin niyyəti həyata
keçər.

22İnsan etibar arzular,
Yoxsul adam fırıldaqçıdan
yaxşıdır.

23Rəbb qorxusu insana həyat verər,
Ona şər yaxınlaşmaz, tox yatar.

24Tənbəl əlini qabda olana batırar,
Ağzına belə, aparmaz.

25Rişxəndçini döysən, cahil insan
uzaqgörən olar,
Dərrakəlini danlasan, biliyini
artırar.

26Kim ki atasını soyub, anasını
qovar,
Xəcalət gətirən övladdır,
ad batırar.

27Oğlum, bilik verən sözlərdən
dönmək istəsən,
Tərbiyəyə qulaq asmaqdan vaz
keç!

28Yaramaz şahid ədalətə rişxənd
edər,
Pislərin ağzı acgözlüklə şəri yeyər.

29Rişxəndçilər üçün məhkəmə,
Axmaqların kürəyi üçün kötək
hazırlanar.

20 1Şərab insanları ələ salar,
Kefləndirici içki onları
dalaşdırar,
Sərxoş olan müdrik olmaz.

2Padşahın vahiməsi aslan nərəsinə
bənzər,
Onu əsəbləşdirən canını itirər.

3Münaqişədən çəkinmək insana
şərəf gətirər,
Hər səfeh davaya girişər.

4Mövsümündə kotan sürməyən
tənbəl əkinçi
Biçin vaxtı heç nə tapmaz.

5Ürəyin düşüncələri dərin sulara
oxşar,
Dərrakəli adam onu çəkib çıxarar.

6İnsanların çoxu sədaqətindən
dəm vurar.
Amma sadiq adamı haradan
tapmaq olar?

7Saleh kamalı ilə yaşar,
Özündən sonra gələn nəsli bəxtiyar
olar.

8Nə zaman ki padşah hökm üçün
taxta çıxar,
Gözləri ilə bütün pisliyi sovurar.
9Kim deyər ki, qəlbimi
təmizləmişəm,
Günahımı silmişəm?

10Aldadıcı ölçü, aldadıcı çəki –
Hər ikisi Rəbdə ikrah yaradar.

11Hətta uşaq da əməlləri ilə,
İşlərinin saf, doğru, yoxsa əksinə

20_Pro Lat:Azeri Bible Latin 24.06.2009 11:29 Page 767



olması ilə tanınar.

12Eşidən qulaq, görən gözlər –
Bunların hər ikisini yaradan
Rəbdir.

13Sevmə yatmağı, yoxsullaşarsan,
Ayıq ol, onda bol çörəyə çatarsan.

14Müştəri deyər: «Pisdir, pis
maldır»,
Amma alıb gedəndə özünü öyər.

15Qızıl və çox yaqut var,
Amma ağıllı söz danışan dil
qiymətli cəvahirdir.

16Özgəyə zamin duranın libasını al,
Onu qəriblər üçün girov saxla.

17Kələklə əldə edilən çörək əvvəlcə
şirin olar,
Axırda ağzı çınqılla doldurar.

18Nəsihət alaraq möhkəm qərar
çıxar,
Müharibəni sağlam məsləhətlə
apar.

19Sözgəzdirən sirləri açıb yayar,
Gərək boşboğaza qoşulmayasan.

20Kim ki atasına, anasına qarğış
edər,
Zülmətə düşərkən çırağı sönər.

21Tələsik alınan mülk
Axırda xeyir gətirməz.

22Demə «bu pisliyin əvəzini
çıxacağam»
Rəbbi gözlə, qoy O səni xilas
etsin.

23Fərqli çəki daşları Rəbdə ikrah
yaradar,
O, aldadıcı tərəzidən xoşlanmaz.
24Kişiyə addım atdıran Rəbdir.
Bəs tutduğu yolu insan necə
anlasın?

25Düşünmədən nəzir edən özünü
tələyə salar,
Sonra öz əhdi barədə
çox fikirləşməli olar.

26Hikmətli padşah pisləri sovurar,
Onlar dəyirman daşında üyüdülər.

27İnsanın ruhu Rəbbin çırağıdır,
Daxilinin dərin yerlərini araşdırar.

28Padşahı məhəbbət və sədaqət
qoruyar,
Taxtını xeyirxahlıq möhkəm
saxlar.

29Gəncləri qüvvəti şərəfləndirər,
Ağ saçlar qocalara zinət verər.

30Yaralayıcı zərbələr pis insanı
düzəldə bilər,
Kötəkləmək daxilin dərin yerlərinə
təsir edə bilər.

21 1Padşahın ürəyi Rəbbin
əlindədir,
Onu su arxı kimi istədiyi səmtə
döndərər.

2İnsanın yolu öz gözündə düz
sayılar,
Lakin ürəkləri Rəbb yoxlayar.

3Rəbb Ona qurban təqdimindən
çox
Salehliyə, ədalətə riayət edilməsini
istər.

4Təkəbbürlü baxış, lovğa ürək
Pislərin işığı və günahıdır.

5Çalışqanın niyyəti xeyir gətirər,
Tələsən ehtiyac içinə düşər.

6Yalançılıqla qazanılan xəzinə
Havaya yayılan sis-dumandır,
bir ölüm tələsidir.

20_Pro Lat:Azeri Bible Latin 24.06.2009 11:29 Page 768



7Zorakılığına görə pislər süpürülüb
atılacaq,
Çünki onlar ədalətə əməl etmək
istəmir.

8Günahkarın yolu dolaşıqdır,
Pak insanın etdiyi doğru sayılır.

9Davakar arvadla bir evdə
yaşamaqdansa
Damın bir küncündə yaşamaq
yaxşıdır.

10Pis insan şərə can atar,
Qonşusu gözündə lütf tapmaz.

11Rişxəndçini cərimə etsən, cahil
bundan hikmət alar,
Hikmətli ibrətdən bilik qazanar.

12Saleh insan pislərin evi barədə
düşünər,
Çünki pislər alt-üst olub bəlaya
düşər.

13Qulağını tutub kasıbın fəryadını
eşitməyənin
Fəryadına cavab verilməyəcək.

14Gizli hədiyyə qəzəbi,
Qoltuqdakı rüşvət hiddəti yatırar.

15Haqq öz yerinə gələndə saleh
sevinər,
Şər iş görənin başı bəlaya düşər.

16Kim ki ağlın yolundan çıxar,
Ölülər camaatı arasında uyuyar.

17Zövq-səfaya düşkün olan ehtiyaca
düşər,
Şərab və yağlı yemək hərisi sərvət
tapmaz.

18Pis insan salehin yerinə,
Xain əməlisalehin əvəzinə girov
verilər.
19Davakar, deyingən arvadla
yaşamaqdansa
Çöllükdə yaşamaq yaxşıdır.

20Hikmətlinin evində istənilən xəzinə
və bolluq var,
Axmağın nəyi varsa,
yeyib-qurtarar.

21Salehlik və sədaqətin ardınca
gedən
Həyat, salehlik və şərəf tapar.

22Bir hikmətli qəhrəmanların
şəhərinə hücum çəkər,
Alınmaz qalanı darmadağın edər.

23Ağzını, dilini tutan insan
Canını bəlalardan saxlayar.

24Lovğa, təkəbbürlü adam rişxəndçi
adlanır,
Lovğalandıqca lovğalanır.

25Tənbəlin arzusu onu ölümə
aparır,
Çünki əlləri zəhmətdən qaçır.
26Tənbəl bütün gün çox şey
arzulayar,
Salehsə əsirgəmədən azuqə
paylayar.

27Şər adamın etdiyi qurban
iyrəncdir,
Pis niyyətlə təqdim olunarsa,
daha pisdir.

28Yalançı şahid həlak olar,
Söz eşidən həmişə danışdırılar.

29Şər adam üzünü sərtləşdirər,
Əməlisaleh tutduğu yolu
möhkəmləndirər.

30Heç bir hikmət, dərrakə, ibrət
Rəbbin qarşısında dayana bilməz.

31Atlar döyüş günü üçün hazırlanar,
Amma zəfəri Rəbb qazandırar.

20_Pro Lat:Azeri Bible Latin 24.06.2009 11:29 Page 769



22 1Yaxşı ad böyük sərvətdən,
Lütfkarlıq isə qızıl-gümüşdən
üstündür.

2Zəngin və yoxsul insan bir şeydə
bir-birinə bənzəyir –
Hər ikisini yaradan Rəbdir.

3Uzaqgörən qabaqcadan şəri görüb
ondan qaçar,
Cahil isə irəli çıxar, ziyan tapar.

4İtaətkarlığın və Rəbb qorxusunun
nəticəsi
Sərvət, şərəf, həyatdır.

5Əyri yol tikanlıdır, orada tələlər
var,
Canını qoruyan bundan uzaqlaşar.

6Uşağa tərbiyə ver ki, layiqli yol
tutsun,
O qocalanda da bu yoldan
dönməz.

7Zəngin yoxsulun ağası olar,
Borclu adam borc verənə qul olar.

8Haqsızlıq əkən şər biçər,
Onun qəzəbinin dəyənəyi məhv
edilər.

9Əliaçıq bərəkət qazanar,
Çünki çörəyindən kasıba paylar.

10Rişxəndçi adamı qovsan,
münaqişə qurtarar,
Çəkişmə, şərəfsizlik sona çatar.
11Ürək təmizliyini sevən,
Dilindən lütfkar sözlər tökülən
padşahın dostudur.

12Rəbbin gözləri biliyi qoruyar,
Xainin sözlərini isə boşa çıxarar.

13Tənbəl deyər: «Bayırda aslan var,
Küçəyə çıxsam, məni parçalar».
14Əxlaqsız qadının ağzı dərin çuxura
oxşar,
Rəbbin lənətinə gələn ora yıxılar.

15Səfehlik uşağın qəlbindən yapışar,
Kötəklə tənbeh ediləndə bu ondan
uzaqlaşar.

16Varlanmaq üçün kasıba zülm
edən,
Zəngin adama verən ehtiyaca
düşər.

### *Hikmətlilərin sözləri*

17Qulağını aç, hikmətlilərin sözlərini
eşit,
Ürəyini mənim biliyimə ver.
18Onları sinənə doldursan,
Onların hamısını dilinə salsan,
yaxşı olar.
19Rəbbə güvənəsən deyə
Bu gün bunları sənə bildirirəm.
20Sənə nəsihətlə, biliklə dolu əla
məsəllər yazmamışammı?
21Qoy bunlar haqq sözün həqiqətini
sənə bildirsinlər ki,
Hara səni göndərsələr,
düz məlumat gətirəsən.

22Kasıbı fəqir olduğu üçün soyma,
Darvazada məzlumu zülmə salma.
23Çünki onların münaqişəsinə
Rəbb baxar,
Onları soyanları soyub-talayar.

24Tez qəzəblənənə yoldaş olma,
Kəmhövsələ ilə yola çıxma.
25Yoxsa onun yollarına alışarsan,
Canını tələyə salarsan.

26Başqalarının borclarına zamin
durmaqdan,
Belə işə əl atmaqdan çəkin.
27Ödəməyə pulun olmasa,
Altından yatağını aparartlar.
28Ata-babalarından qalan

Qədim sərhəd daşının yerini
dəyişmə.

29İşində mahir olanı görürsənmi?
Sıravi adamların deyil, şahların
hüzurunda dayanar.

23 1Bir ağa ilə süfrəyə əyləşəndə
Qarşında olana yaxşı bax.
2İştahan çox olsa da, boğazına
sərhəd qoy.
3Onun ləziz xörəklərinə tamah
salma,
Çünki bu yemək adamı aldadar.

4Sərvət qazanmaq üçün özünü əldən
salma,
İdraklı ol, bu fikirdən vaz keç.
5Gözünü sərvətə diksən, yox olar,
Birdən qanadlanar, uçub qartal
tək göyə qalxar.

6Xəsisin çörəyini yemə,
Onun ləziz xörəklərinə tamah
salma.
7O, ürəyində hər şeyin hesabını edər.
Dilində sənə «ye, iç» deyər,
Amma ürəyi ilə dili bir deyil.
8Yediyin loğmanı qusarsan,
Dediyin bütün şirin sözlər boşa
çıxar.

9Axmağın qulağına söz demə,
Çünki sənin ağıllı sözlərinə xor
baxar.
10Qədim sərhəd daşının yerini
dəyişmə,
Yetimlərin əkininə girmə.
11Çünki onların Hamisi qüvvətlidir,
Səninlə olan münaqişəyə O baxar.

12Qəlbini tərbiyəyə,
Qulaqlarını bilik sözlərinə ver.

13Uşağa tərbiyə ver, bundan vaz
keçmə,
Tərbiyə kötəyi ona ölüm gətirməz.
14Əgər sən onu kötəkləsən,
Canını ölülər diyarından xilas
edərsən.

15Oğlum, ürəyin hikmətli olarsa,
Mənim də ürəyim sevinər.
16Dilindən düz sözlər çıxarsa,
Könlüm sevincdən cuşa gələr.

17Ürəyin günahkarlara qibtə
etməsin,
Ancaq bütün gün Rəbb qorxusu ilə
yaşa.
18Sənin də bir aqibətin var,
Ümidin boşa çıxmaz.

19Oğlum, dinlə, hikmətli ol,
Qəlbini düz yola bağla.
20Şərab düşkünü olan əyyaşlara,
Ət qapan qarınqululara qoşulma.
21Çünki əyyaş və qarınqulu
yoxsullaşar,
Yeyib-içib, məst olan cır-cındır
içində qalar.

22Doğma atana qulaq as,
Qoca anana xor baxma.
23Həqiqət al, onu satma,
Hikməti, tərbiyəni, idrakı
qoruyub-saxla.
24Salehin atası bolluca
fərəhlənəcək,
Hikmətlinin övladı onu
sevindirəcək.
25Qoy ata-anan sevinsin,
Səni doğan fərəhlənsin.
26Oğlum, mənə fikir ver,
Gözlərin mənim yollarımı
nəzərdən keçirsin.
27Fahişə dərin bir çuxurdur,
Yad arvad dar quyudur.
28Quldur kimi pusqu qurar,
İnsanlar arasında xainləri artırar.
29Kimdir yaslı?

20_Pro Lat:Azeri Bible Latin 24.06.2009 11:29 Page 771



Kimdir dərdli?
Kimin münaqişəsi var?
Kimin şikayəti var?
Kim boş yerə yaralandı?
Kimin gözləri qızarar?
30Şərab içməyə oturub qalxmayan,
Gedib müxtəlif şərab dadanlar!
31Şərabın al rənginə,
Qədəhdə parlamasına, rahat
içilməsinə baxma.
32Axırda ilan kimi sancar,
Əfi ilan kimi zəhərlər.
33Gözlərinə qəribə şeylər görünər,
Qəlbinə əyri fikirlər gələr.
34Özünü dənizin ortasında sanarsan,
Sanki gəmi dirəyinin başında
yatmısan.
35Deyərsən: «Məni vurublar, hiss
etməmişəm,
Məni döyüblər, heç bilməmişəm.
Yenə içmək üçün nə zaman
ayılacağam?»

24 1Pis adamlara qibtə etmə,
Onlara qoşulmaq istəmə.
2Çünki ürəklərində zalımlığı
fikirləşər,
Dilləri qəddarlıqdan danışar.

3Ev hikmətlə tikilər,
Dərrakə ilə möhkəmlənər.
4Mənzillər bilik vasitəsilə,
Hər cür dəyərli, yaxşı şeylərlə
dolar.

5Hikmətli kişi qüvvətli olar,
Bilikli adam öz gücünü artırar.
6Düzgün məsləhətlə müharibə edə
bilərsən,
Doğru nəsihət verən çoxdursa,
qələbəyə çatarsan.

7Səfeh üçün hikmət əlçatmazdır,
Darvazada susub ağzını açmır.
8Şər quran fitnəkar adlanar,
9Səfehin pis əməlləri günah sayılar,
Rişxəndçilər insanlarda ikrah
yaradar.

10Dar gündə taqətdən düşsən,
Necə də zəif adamsan!
11Ölümə aparılanları qurtar,
Qırğın təhlükəsi altında olanları
geri çək.
12Desən ki, bax bundan xəbərim
yox idi,
Ürəkləri yoxlayan bunu görməzmi?
Canını qoruyan bunu bilməzmi?
İnsan əməlinə görə Ondan əvəz
almazmı?

13Oğlum, bal ye, xeyri var,
Şanı balının şirin dadı damağında
qalar.
14Bil ki, hikmət də canın üçün belə
olar,
Onu tapsan, nəticəsi də var,
Ümidin boşa çıxmaz.

15Ey şər insan, salehin yurdu üçün
pusqu qurma,
Onun evini soyma.
16Saleh yeddi dəfə yıxılsa belə,
yenə qalxar,
Şər insan büdrəsə, bəlaya düçar
olar.

17Düşməninin yıxılmasına sevinmə,
Onun büdrəməsinə görə ürəyin
fərəhlənməsin.
18Yoxsa Rəbb görər, bundan xoşu
gəlməz,
Düşmənin üzərindən qəzəbini
götürər.

19Pislik edənlərə görə qəzəblənmə,
Şər insanlara qibtə etmə,
20Çünki pis insanın axırı yoxdur,
Şər adamın çırağı sönər.

21Oğlum, Rəbdən və padşahdan

20_Pro Lat:Azeri Bible Latin 24.06.2009 11:29 Page 772



qorx,
Xəyanətkarlarla yoldaş olmaqdan
çəkin.
22Onların bəlası qəfildən gəlir.
Hər ikisinin verəcəyi cəzanı
kim bilir?

### *Hikmətli sözlərin davamı*

23Bu sözləri də hikmətlilər deyib:

Məhkəmədə tərəfkeşlik etmək
yaxşı deyil.
24Pis insana «sən salehsən» deyəni
xalqlar qınayar,
Ümmətlər lənət yağdırar.
25Amma onu danlayanlar xeyir
tapar,
Başlarından bol bərəkət yağar.

26İnsana doğru cavab verən
Sanki onun üzündən öpər.

27Əvvəlcə çöldəki işini qurtar,
Zəmi sal, sonra evini tik.

28Qonşunun əleyhinə haqsız şahidlik
etmə,
Qoy dilindən yalan söz çıxmasın.
29Demə: «Mənə etdiyini mən də ona
edəcəyəm,
Onun əməlinin əvəzini
verəcəyəm».
30Tənbəlin zəmisindən,
Qanmazın üzümlüyündən keçdim.
31Gördüm hər yanı tikan basıb,
Gicitkən bürüyüb, daşı-divarı
uçub.
32Baxaraq ona diqqət yetirdim,
Bundan ibrət götürdüm:
33Bir az da uzanıb yuxuya dalsan,
Əl-qolunu uzadaraq yatsan,
34Yoxsulluq üstünə soyğunçu kimi,
Ehtiyac üstünə quldur kimi hücum
çəkər.

### *Süleymanın məsəllərinin davamı*

25 1Bunlar da Süleymanın
məsəlləridir. Yəhuda padşahı
Xizqiyanın adamları bir yerə
yığılıb bunların üzünü köçürtdü.

2Allahın işlərinin müəmması Onu
şərəfləndirər,
Bu işləri aşkar etmək padşahlara
şərəf gətirər.

3Göyün yüksəkliyini, yerin
dərinliyini,
Padşahın da qəlbindən keçənləri
bilmək olmaz.

4Tullantını gümüşdən ayırsan,
Zərgərə əl işi qalar.
5Əgər şər adam padşahın yanından
ayrılarsa,
Taxtı salehliklə möhkəmlənər.

6Padşahın hüzurunda özünü
ucaltma,
Rütbəlilərin yanında dayanma.
7Çünki «buyur yuxarı» dəvətini
almaq
Bir əsilzadə qarşısında aşağı
endirilməkdən yaxşıdır.

8Gördüyün şeylər barədə
Dava yaratmağa tələsmə.
Sonra qonşun səni utandırsa, nə
edərsən?
9Münaqişəni qonşunla özün həll et,
Özgənin sirrini açma.
10Yoxsa hər eşidən sənə xor baxar,
Bu səni etibardan salar.

11Yerində deyilən sözlər,
Gümüş oymalar içində qızıl
almalara bənzər.

12Sözəbaxan insana hikmətlinin

**24:33-34** *Sül. 6:10-11* **25:6-7** *Luka 14:7-10*

20_Pro Lat:Azeri Bible Latin 24.06.2009 11:29 Page 773



məzəmməti
Qızıl sırğa, qızıl bəzək kimidir.

13 Biçin zamanı qar kimi sərinlik necədirsə,
Etibarlı elçi də onu göndərən üçün belədir.
O, ağasının ruhunu təzələyir.

14 Kim ki vermədiyi bəxşişlərlə öyünür,
Yağışsız buluda və küləyə bənzəyir.

15 Səbirlə hökmdarı da inandırmaq olar,
Şirin dil sümükləri belə, yumşaldar.

16 Bal tapsan, lazımi qədər ye,
Acgözlüklə yesən, qusarsan.
17 Qonşunun evinə az-az get,
Yoxsa bezər, sənə nifrət edər.

18 Kim ki qonşusuna qarşı yalandan şahidlik edir,
Toppuza, qılınca, iti oxa bənzəyir.

19 Dar gündə namərdə bel bağlamaq
Çürük dişə, şikəst ayağa güvənməyə bənzəyir.

20 Qəlbi qubarlıya nəğmə söyləmək
Soyuq havada lüt qoyulmağa,
Soda üstə sirkə tökülməyə bənzəyir.

21 Düşmənin acdırsa, onu yedizdir,
Susuzdursa, ona su ver.
22 Belə etməklə sanki onun başına köz tökərsən,
Bunun əvəzini Rəbdən alarsan.

23 Şimal küləyi yağış gətirir,
Qeybətçi dil isə insanın üzünə qəzəb gətirir.

24 Davakar arvadla bir evdə yaşamaqdansa
Damın bir küncündə yaşamaq yaxşıdır.

25 Susuzluqdan yanana sərin su necədirsə,
Uzaq diyardan gələn xoş xəbər də elədir.

26 Əgər saleh insan pis adama təslim olarsa,
Bulanan bulağa, murdarlanan quyuya bənzəyir.

27 Qədərindən çox bal yemək xeyirli olmadığı kimi
Tərifə uymaq da yaxşı deyil.

28 Nəfsini saxlaya bilməyən
Dağılmış, hasarsız şəhərə bənzəyir.

# 26

1 Yay fəslinə qar, biçinə yağış yaraşmadığı kimi
Axmağa da şərəf yaraşmaz.

2 Sərçənin ora-bura uçduğu kimi,
Qaranquşun gəlib-getdiyi kimi
Nahaq qarğış da boşdur.

3 Ata qamçı, eşşəyə noxta necə yaraşırsa,
Axmağın kürəyinə də kötək elə yaraşır.
4 Axmağa səfehliyinə görə cavab vermə,
Yoxsa ona bənzərsən.
5 Axmağa səfehliyinə görə elə bir cavab ver ki,
Öz gözündə hikmətli görünməsin.

6 Kim ki axmaq vasitəsilə xəbər göndərir,
Öz ayaqlarını kəsib ziyan çəkənə bənzəyir.

**25:21-22** *Rom. 12:20*

20_Pro Lat:Azeri Bible Latin 24.06.2009 11:29 Page 774



7Axmağın ağzından çıxan məsəl
Topalın ayağının axsamağına
bənzəyir.

8Axmağı tərifləmək
Sapanda qoyulan daşa bənzəyir.

9Sərxoş tikanlı budağı əlində
tutduğu kimi
Axmaq da məsəl çəkər.

10Axmağı, hər yoldan ötəni muzdla
tutan
Hamını yaralayan naşı oxatan
kimidir.

11Hansı axmaq öz səfehliyini
təkrarlayırsa,
Qusduğuna qayıdan itə oxşayır.

12Öz gözündə hikmətli sayılanı
görmüsənmi?
Axmağa ondan artıq ümid var.
13Tənbəl deyər: «Yolda aslan var,
Şir küçələri dolanır».
14Qapı öz oxu üstündə necə
fırlanırsa,
Tənbəl də yatağında elə fırlanır.
15Tənbəl əlini qabda olana batırar,
Ağzına aparmağa ərinər.
16Tənbəl öz gözündə
Ağıllı cavab verən yeddi nəfərdən
də çox hikmətli görünər.
17Ona aid olmayan münaqişəyə
qarışan
Elə bil küçədəki iti qulaqlarından
tutur.

18Odlu, öldürücü oxlar atan dəli
necədirsə,
19Qonşusunu aldadıb «zarafat
etdim» deyən də elədir.

20Odun qurtaranda ocaq sönər,
Qeybətçi olmayan yerdə dava
bitər.

21Necə ki kömür köz salar,
odun alışar,
Davakar adam da münaqişəni
bu cür alovlandırar.

22Qeybətçinin sözləri şirin tikələrə
bənzər,
Mədənin ən dərin yerlərinə düşər.

23Hərarətli dili, şər dolu ürəyi olan
insan
Gümüşü suya çəkilmiş saxsı qaba
oxşayır.

24Düşmən kinini dili altında
gizlədər,
Qəlbində hiyləsini saxlar.
25Onun mehriban danışığına
inanma,
Qəlbinə yeddi cür iyrənclik
doldurub.
26Nifrətini fırıldaqla gizlətsə də,
Şəri camaat qarşısında üzə çıxar.

27Quyu qazan özü quyuya düşər,
Daş isə onu yuvarlayanın üstünə
gələr.

28Yalan danışan dil sancdığı
adamlara nifrətini göstərər,
Yaltaqlanan ağız hər yanı
xarabaya çevirər.

27 1Sabahkı gününlə öyünmə,
Günün nə doğacağını
bilməzsən.

2Qoy səni özün yox, başqaları
tərifləsin,
Sənə tərifi öz dilin yox,
yad söyləsin.

3Daşın, qumun çəkisi ağırdır,
Səfehin əsib-coşması bunların
ikisindən də ağırdır.

**26:11** *2Pet. 2:22*

20_Pro Lat:Azeri Bible Latin 24.06.2009 11:29 Page 775



4Hiddət amansızdır, qəzəbsə
aşıb-daşar,
Paxıllıq daha betərdir, ona necə
dözmək olar?

5Aşkar irad gizli məhəbbətdən
üstündür.

6Dostun vurduğu yara onun
sədaqətinə görədir,
Amma düşmən öpdükcə öpər.

7Toxun könlü şanı balını belə,
rədd edər,
Lakin ac olana acı şeylər belə,
şirin gələr.

8Yurdundan ayrı düşən insan
Bir quş kimi yuvasından ayrı
düşür.

9Gözəl ətir və buxurun ürəyə
verdiyi ləzzət kimi
Dostun nəsihəti də insana xoş
gələr.

10Həm öz dostunu, həm də atanın
dostunu tərk etmə,
Dara düşəndə qardaşının evinə
getmə.
Yaxın qonşu uzaq qohumdan
yaxşıdır.

11Oğlum, hikmətli ol, qoy qəlbim
sevinsin,
Onda məni utandırana cavab
verə bilərəm.

12Uzaqgörən qabaqcadan şəri görüb
ondan qaçar,
Cahil isə irəli çıxar, ziyan tapar.

13Özgəyə zamin duranın libasını al,
Onu qərib qadın üçün girov saxla.

14Kim ki qonşusunu sübh erkən
ucadan salamlar,
O zaman salamı söyüş sayılar.

15Davakar qadın yağışda daman
damcıya oxşar.
16Onu yel kimi dayandırmaq olmaz,
Zeytun yağı kimi ovucda saxlamaq
olmaz.

17Dəmir dəmiri itilər,
İnsan insanın ağlını iti edər.

18Əncir becərən barını yeyər,
Ağasının qayğısına qalan
şərəfləndirilər.

19Sifətin əksi suyun üzünə düşdüyü
kimi
İnsanın ürəyi də onu elə göstərər.

20Ölüm və Həlak yeri doymadığı
kimi
İnsanın da gözü doymaz.

21İsti kürədə qızıl-gümüş yoxlanar,
İnsan da başqalarının tərifi ilə
tanınar.

22Buğdanı həvəngdəstədə döysən,
kəpəyi çıxar,
Amma səfehi nə qədər döysən,
səfehliyi çıxmaz.

23Sürünə yaxşı bax, naxırına nəzər
yetir,
24Nə var-dövlət əbədidir, nə də tac
nəsildən-nəslə keçir.
25Saman yığılandan sonra təzə ot
bitəndə,
Dağlarda ot biçiləndə
26Quzuların səni geyindirər,
Təkələrini satıb tarla ala bilərsən.
27Keçilər sənə yemək üçün o qədər
süd verər ki,
Bu, evin azuqəsinə, kənizlərinin
dolanışığına çatar.

**27:1** *Yaq. 4:13-14*

20_Pro Lat:Azeri Bible Latin 24.06.2009 11:29 Page 776



28 1Şər insan onu qovan yox
ikən qaçar,
Saleh aslan kimi mərd dayanar.

2Ölkədə üsyan olanda rəhbərlər
artar,
Dərrakəli, işbilən adam olsa,
ölkəni uzun müddət qoruyar.

3Bir yoxsul kişi kasıbları
incidərsə,
Bu, əkini yuyub aparan, qıtlıq
yaradan güclü yağışa bənzər.

4Qanunu pozanlar pisi tərifləр,
Qanuna əməl edənlər onlara qarşı
çıxar.

5Pis insanlar nə bilir ki, ədalət
nədir,
Rəbbi axtaranlar bunu dərk edir.

6Kamalla yaşayan yoxsul insan
Əyri yolla sərvət qazanandan
yaxşıdır.

7Qanan oğul qanunu yerinə
yetirər,
Qarınquluya qoşulan atasına
xəcalət çəkdirər.

8Kim ki müamilə ilə, sələmlə var-
dövlət yığar,
Onun varı axırda kasıblara səxavət
göstərənə qalar.
9Kim ki qanunu eşitməmək üçün
qulaqlarını bağlayır,
Onun duaları iyrəncdir.

10Kim ki əməlisalehləri əyri yola
çəkər,
Öz qazdığı quyuya düşər,
Kamillərə yaxşı şeylər irs qalar.

11Zəngin özünü hikmətli sanar,
Amma müdrik kasıb onun qəlbini
oxuyar.

12Salehlərin zəfəri hamıya şərəf
gətirər,
Amma pislər hakim olsa, hamı
gizlənər.

13Günahlarını ört-basdır edən
uğur qazanmaz,
Onu etiraf edərək tərk edən
mərhəmət tapar.

14Həmişə Rəbdən qorxan
bəxtiyardır,
Ürəyi inadkar bəlaya düşər.

15Kasıb xalqın üzərində olan
pis hökmdar
Nərildəyən aslan, hücum edən
ayıya oxşar.

16Dərrakəsiz hökmdar qəddar,
zülmkar olar,
Haram qazanca nifrət edənin ömrü
uzanar.

17Qantökən qorxub məzara
düşənədək qaçar.
Qoy heç kim ona kömək etməsin.

18Kamillik yolu ilə gedən qurtular,
Əyri yolda olanlar qəflətən yıxılar.

19Torpağını əkib-becərən doyunca
çörək yeyər,
Boş şeylərin ardınca gedən
müflisləşər.
20Etibarlı insanın bərəkəti boldur,
Tez varlanmaq istəyən cəzasız
qalmır.

21Tərəfkeşlik yaxşı deyil,
Kişi bir loğma çörək üçün
günah işlədə bilər.

22Xəsis var-dövlət ardınca düşər,
Bilmədən yoxsulluğa yetişər.

23Kim ki başqasını danlayır,
Yağlı dilə tutandan çox axırda o,

lütf qazanır.

24Ata-anasını soyub «günah
deyildir» deyən
Qırıcı insana yoldaşdır.

25Tamahkar dava yaradar,
Rəbbə güvənən bolluğa çatar.

26Öz ağlına güvənən axmaqdır,
Hikmətlə gəzib-dolaşan azad olur.

27Yoxsula əl tutan möhtac qalmır,
Ona məhəl qoymayan lənət
qazanır.

28Pislər hakim olsa, hamı gizlənər,
Onlar yox olanda salehlər
çoxalar.

29 1Məzəmmətlərə baxmayıb
dikbaşlıq edən
Birdən yıxılıb çarəsiz qalar.

2Salehlər artanda xalq sevinər,
Pis hökmdar olanda xalq nalə
çəkər.

3Hikmət sevən atasını sevindirər,
Fahişələrə aşna olanın əlindən
var-yoxu gedər.

4Padşah ölkəni ədalətlə
möhkəmləndirər,
Ağır vergilər qoyansa ölkəni
süqut etdirər.
5Bir kişi ki qonşusunu yağlı dilə
tutur,
Onun addımları üçün tor qurur.

6Pisin günahı özünə tələdir,
Saleh sevincindən haray çəkir.

7Saleh kasıbların haqqını görür,
Pis adam bunu dərk etmir.

8Rişxəndçilər şəhəri çaxnaşdırar,
Hikmətlilər isə qəzəbi yatırar.

9Hikmətli səfehi məhkəməyə versə,
Səfeh coşub lağ edər, dinclik
gedər.

10Qana susayanlar kamil insana
nifrət edər,
Əməlisalehlər can qurtarar.

11Axmaq həddini aşıb özündən
çıxar,
Hikmətli səbirli dayanar.

12Hökmdar yalan sözə qulaq asarsa,
Bütün xidmətçiləri şər insana
çevrilər.

13Yoxsul insan və zalım bir-birinə
bir şeydə bənzəyir:
Hər ikisinin gözlərini işıqlandıran
Rəbdir.

14Padşah kasıblara həqiqətlə hökm
versə,
Taxtı əbədi möhkəmlənər.

15Kötək və məzəmmət hikmət
gətirər,
Özbaşına qalan uşaq anasını
rüsvay edər.

16Pislər çoxalanda cinayət artar,
Salehlər görəcək ki, onlar necə
yıxılacaqlar.

17Oğluna tərbiyə ver ki, canın dinc
olsun,
Könlün bundan ləzzət alsın.

18İlahi söz nazil olmayanda xalqda
hərc-mərclik olar.
Qanuna əməl edən nə bəxtiyardır!

19Qula sözlə tərbiyə vermək olmaz,
Çünki başa düşsə belə,
qulaq asmaz.

20Düşünmədən danışana
baxmısanmı?

20_Pro Lat:Azeri Bible Latin 24.06.2009 11:29 Page 778



Axmağa ondan artıq ümid var.

21 Kim ərköyün qul böyütsə,
Axırda bu ona dərd verər.

22 Qəzəbli insan dava yaradar,
Kəmhövsələ günahı artırar.

23 İnsanı təkəbbürü alçaldar,
İtaətkar şərəfə çatar.

24 Oğruya qoşulan öz-özünə
düşməndir,
And içsə də, məhkəmədə həqiqəti
söyləməz.

25 İnsandan qorxan özünü tələyə
salar,
Amma Rəbbə güvənən arxayın
yaşar.

26 Çoxu hökmdarın hüzurunu
arzular,
Amma insan ədaləti Rəbdə tapar.

27 Salehlər haqsızlardan,
Pis insanlarsa əməlisalehlərdən
ikrah edər.

### *Aqurun müdrik məsəlləri*

30 1 Yaqe oğlu Aqurun sözləri,
onun kəlamı.
Bu adam Yetielə, Yetiel və Ukala
belə dedi:[a]

2 Həqiqətən, mən hamıdan
ağılsızam,
İnsan idrakına malik deyiləm.
3 Nə hikmət öyrənmişəm,
Nə də Müqəddəsin biliyindən
xəbərim var.
4 Kim göylərə qalxıb endi?
Kim yeli ovcunda topladı?
Kim suları paltarına sarıdı?
Yer üzünün qurtaracağınadək hər
yeri kim yaratdı?
Adı nədir? Oğlunun adı nədir?
Bilirsənmi?

5 Allahın hər bir kəlamı safdır,
Ona pənah gətirənlərin sipəri
Odur.
6 Onun sözünə heç nəyi əlavə etmə,
Yoxsa səni tənbeh edər, yalanını
çıxarar.

7 Ey Allah, Səndən iki şey istəyirəm,
Nə qədər ömrüm var, məndən
onları əsirgəmə:
8 Saxta, yalan sözlər qoy məndən
uzaq olsun;
Məni nə yoxsul, nə də zəngin et,
Ancaq mənə gündəlik çörəyimi
ver.
9 Varlansam, «Rəbb kimdir?» deyə
Sənə küfr edərəm,
Yoxsul olsam, oğurlaram və
Allahımın adını ləkələrəm.

10 Qul barədə ağasına pis sözlər
demə,
Yoxsa sənə qarğış edər, bu təqsirlə
yüklənərsən.

11 Adam var ki, atasına qarğış edir,
Anasına alqış etmir.
12 Adam var ki, özünü təmiz sanır,
Amma murdarlıqdan
təmizlənməyib.
13 Adam var ki, yuxarıdan aşağı
baxar,
Təkəbbürlə baxmaq üçün gözlərini
qaldırar.
14 Adam var ki, dişləri qılınca
bənzər,
Elə bil çənəsinə bıçaqlar düzüb,
Yer üzündən məzlumları udar,
İnsanların içindən fəqirləri məhv

a **30:1** *Bu adam Yetielə, Yetiel və Ukala belə dedi* – yaxud *ey Allah, yorulmuşam, yorulub taqətdən düşmüşəm.*

20_Pro Lat:Azeri Bible Latin 24.06.2009 11:29 Page 779



edər.

15Zəlinin iki qızı var,
«Ver, ver» deyib bağırar.

Üç şey var ki, heç doymaz,
Dörd şey var ki, «bəsdir» deməz:
16Ölülər diyarı, qısır bətn,
Sudan doymayan torpaq,
«Bəsdir» deməyən alov.

17Kim ki atasına rişxənd edir,
Anasının sözünə xor baxır,
Dərələrdəki qarğalar onun
gözlərini deşəcək,
Qartal balaları onun bəbəklərini
yeyəcək.

18Mənim ağlım kəsməyən üç şey var,
Anlamadığım dörd şey var:
19Səmada qartalın yolu,
Qayada ilanın yolu,
Dənizdə gəminin yolu,
Kişi ilə gənc qadının yolu.
20Zinakar qadının da yolu belədir:
Yeyər, ağzını silər,
«Nə pis iş görmüşəm ki?» deyər.

21Yer üç şeydən lərzəyə gəlir,
Dörd şey var ki, ona tab gətirmir:
22Qulun padşah olması,
Sarsağın doyunca çörək tapması,
23Nifrətəlayiq qadının ərə getməsi,
Qarabaşın öz xanımının yerinə
keçməsi.

24Yer üzündə dörd şey var,
Kiçik olsa da, hikməti çoxdur:
25Qarışqalar qüvvətli olmayan
birlikdir,
Yemini yayda tədarük edir;
26Qayadovşanları[a] da güclü olmayan
birlikdir,
Evlərini qaya içində tikir;
27Çəyirtkələrin şahı yoxdur,
Lakin hamısı dəstə-dəstə irəliləyir;
28Kərtənkələni əllə tutmaq olur,
Amma o, padşah saraylarına çıxır.

29Üç məxluq var ki, yerişi gözəldir,
Dörd məxluq var ki, gedişi
gözəldir:
30Heyvanların ən güclüsü,
Heç nəyin qarşısından geri
dönməyən şir,
31Döyüşkən xoruz, təkə,
Qoşun qabağına çıxan padşah.

32Əgər özünü ucaltmaqla sarsaqlıq
etmisənsə,
Fikrində pis niyyətin varsa, əlinlə
ağzını tut.
33Çünki südü çalxalayanda yağ
çıxdığı kimi,
Burnu sıxanda qan çıxdığı kimi
Qəzəbi qızışdıranda da dava
yaranar.

### *Lemuel padşahın anasının sözləri*

31 1Lemuel padşahın sözləri,
anasının ona öyrətdiyi kəlam.

2Nə deyim, oğlum, ey doğduğum
oğul,
Nəzir-niyazla əldə etdiyim oğul?
3Gücünü qadınlara,
Yollarını padşahları məhvə
aparanlara sərf etmə.
4Ey Lemuel, şərab içmək
padşahlara yaraşmaz,
Kefləndirici içkiyə aludə olmaq
hökmdarlara yaraşmaz.
5İçəndə qayda-qanunu unudarlar,
Bütün məzlumların haqqını
pozarlar.
6Kefləndirici içkini düşkünə,
Şərabı dərdliyə verin.

a **30:26** *Qayadovşanı* – ibrani dilində *şafan* adlanan məməli heyvan.

20_Pro Lat:Azeri Bible Latin 24.06.2009 11:29 Page 780



7Qoy içib yoxsulluğunu unutsun,
Öz dərdini daha yada salmasın.

8Dilsizə görə ağız aç,
Bütün möhtacların haqqını qoru.
9Ağzını aç, ədalətlə hökm ver,
Məzlumların, fəqirlərin haqqını
yerinə yetir.

### *Xeyirxah arvad*

10Xeyirxah arvad tapan kimdir?[a]
O, yaqutlardan daha qiymətlidir.
11Ərinin qəlbi ondan arxayındır,
Dayanmadan bərəkət qazanır.
12Ömrü boyu ərinə pislik deyil,
yaxşılıq gətirir,
13Yunu, kətanı tapıb seçir,
Əlindən hər iş zövqlə gəlir.
14Ticarət gəmilərinə bənzəyir,
Uzaqlardan gələn ruzini gətirir.
15Alaqaranlıqda yuxudan durur,
Ailəsinə yemək hazırlayır,
Kənizlərinə də paylayır.
16Tarlaya baxandan sonra satın
alır,
Əlinin zəhməti ilə bağ salır.
17Belini möhkəm bağlayır,
Qolları güc üstündən güc alır.
18Ticarətin şirinliyindən dadır,
Bütün gecə boyu çırağı yanır.
19Əlləri ilə cəhrə əyirir,
İyini[b] bərkidir.
20Məzlumlar üçün əliaçıqdır,
Fəqirlərə əl tutur.
21Qar yağanda ailəsi üçün qayğısı
olmaz,
Çünki hamısı qırmızı paltar
geyinib.
22Yorğan-döşək üçün örtük toxuyur,
Öz libası tünd qırmızı incə
kətandandır.
23Əri şəhər darvazalarında yaxşı
tanınır,
El ağsaqqalları ilə oturub-durur.
24Qadın tacirlərə qurşaqları,
Toxuduğu kətan paltarları satır.
25Qüvvəyə, şərəfə bürünür,
Gələcək üzünə gülür.
26Ağzını açanda hikmət axır,
Dilindən sədaqət təlimi çıxır.
27Ailəsinin işini idarə edir,
Tənbələ layiq olan çörəyi yemir.
28Övladları ayağa qalxıb onu
alqışlayır,
Əri onu tərifləyir:
29«Xeyirxah qadınlar çoxdur,
Amma sənin tayın yoxdur».
30Qadının məlahəti aldadıcı,
gözəlliyi fanidir,
Yalnız Rəbdən qorxan qadın tərifə
layiqdir.
31Ona əlinin bəhrəsini verin,
Qoy şəhər darvazasında əməlləri
ona tərif gətirsin.

---

a **31:10-31** Bu ayələr akrostix şəkildə yazılıb, yəni ayələr ibrani əlifbasının sırası ilə başlayır.
b **31:19** *İy* – cəhrənin sap dolanan düz çubuğu.